13 oktyabr 2021 №77 (1854)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azad edilmiş torpaqlarda xalqımız əbədi yaşayacaq



Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümünü burada – Hadrutda qeyd etmək, hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta – Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına biz tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq. Bu gün artıq Hadrutun və ümumiyyətlə Qarabağın yeni dövrü başlayır.

Prezident İlham Əliyev bu sözləri oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə deyib.

Dövlət başçısı vurğulayıb ki, Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyır: "Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi. Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda, Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı. Onu da bildirməliyəm, baxmayaraq ki, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərari olmuşdur və bəzi yaşayış məntəqələrindən onlar tələm-tələsik qaçaraq çıxmışdılar, amma Hadrutda direniş göstərdilər, müqavimət göstərdilər və burada gedən şiddətli döyüşlər bir neçə gün davam etmişdir. Buna baxmayaraq, Azərbaycan əsgəri, zabiti qarşısında onlar öz acizliyini dərk edərək burada da məğlubiyyətə uğradılar".

davamı səh. 2-də

## Bakıda kitab bayramında növbəti görüşədək

### İştirakçı və tədbir sayı, yüksək təşkilatçılıq və ziyarətçi marağı Bakı Beynəlxalq Kitab Sərgisinin regionun ən böyük kitab şöləni olduğunu təsdiqlədi

6-10 oktyabr tarixində Bakı Ekspo Mərkəzində keçirilən 7-ci Bakı Beynəlxalq Kitab Sərgisi (Baku İnternational Book Fair-2021) zəngin təəssüratlarla öz işini yekunlaşdırdı.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş sərgi 2009-cu ildə təməli qoyulmuş bu beynəlxalq tədbirin nüfuzunu əhəmiyyətli dərəcədə artırdı.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı və "Caspian Event Organisers" ("CEO") şirkətinin təşkilati dəstəyi ilə baş tutan sərgidə 12 ölkədən (Türkiyə, Rusiya, Bolqarıstan, Gürcüstan, Fransa, İndoneziya, İran, Kolumbiya, Qazaxıstan, Qırğızıstan, Misir, Özbəkistan) 43 xarici təşkilat, 122 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak etdi və sərgi müddətində müxtəlif formatda 200-dən çox tədbir təşkil olundu.

Sərgi mütaliə mədəniyyətinin təbliği, oxucuların nəşriyyat işi sahəsində olan rəqəmsal yeniliklərlə tanışlığı, ölkəmizdə kitab sənayesi sektorunun və müasir ədəbi proseslərin inkişafının dəstəklənməsi istiqamətində öz rolunu uğurla həyata keçirdi.

Sərginin davam etdiyi 5 gün ərzində gənclərin və uşaqların çoxluq təşkil etdiyi on minlərlə ziyarətçi dünya ədəbiyyatının klassik əsərləri, dərsliklər, elmi araşdırmalar və uşaq ədəbiyyatının nümunələri ilə böyük maraqla tanış oldular və bəyəndikləri kitabları aldılar.




Tanınmış yerli və xarici yazarlar – Çingiz Abdullayev, Elxan Elatlı, Elçin Əliyev, Reyhan Yusifqızı, Nail Əlizadə, Gülseren Budayıcıoğlu, Ercan Kesal, Sinan Yağmur, Şah Səlimi Türkay, Toğrul Mehti Niyazi və başqaları sərginin xüsusi qonaqları oldular.

Azad Qarabağ, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Zəfər sərginin yaradıcılıq nöqteyi-nəzərindən əsas mövzusu idi. Müəlliflər Qələbəyə həsr olunmuş kitab, esse və şeirlərini təqdim etdilər.

Sərgi zamanı Nizami Gəncəvinin 880 illiyinə həsr olunan "Nizami Gəncəvi" guşəsinin və Nizami Gəncəvi ilə bağlı yeni nəşr olunan kitabların təqdimatı keçirildi.

davamı səh. 2-də

## İşğal altında olmuş Azərbaycan ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqları

### Beynəlxalq hesabat təqdim edilib

Oktyabrın 12-də Bakı Dövlət Universiteti (BDU) Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" üzrə UNESCO kafedrasının hazırladığı "İşğal altında olmuş Azərbaycan Respublikası ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair" kompleks beynəlxalq hesabatın təqdimat mərasimi keçirilib.




Layihənin rəhbəri, BDU-nun rektoru Elçin Babayev giriş sözündə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində tarixi Qələbəsindən bəhs edib. Bildirib ki, BDU-da başladılan bu akademik layihə ölkəmizin tanınmış hüquqşünasları və əcnəbi nüfuzlu hüquqşünas-alimlərin – ABŞ, Rusiya, Ukrayna, Qazaxıstan və Türkiyənin mütəxəssislərinin iştirakı ilə hazırlanıb. Beynəlxalq hesabatın hazırlanmasında əsas məqsəd Azərbaycanın 30 ilə yaxın Ermənistanın işğalı altında olmuş ərazilərindən məcburi köçkünlərin pozulmuş hüquqlarının, daha sonra dəymiş ziyanın əhatə dairəsinin və istiqamətlərinin müəyyən edilməsi, beynəlxalq təcrübəni öyrənməklə pozulmuş hüquqların bərpası, dəymiş ziyanın Ermənistan tərəfindən ödənilməsi üçün beynəlxalq-hüquqi mexanizmlərin təhlil edilməsidir. Məcburi köçkünlərin işğala qədər, işğal dövründə və işğaldan azad olunandan sonra əsas hüquq və azadlıqları beynəlxalq sənədlərə tanınır və onların pozulmuş hüquqları bərpa edilməlidir.

davamı səh. 2-də

## Mədəniyyət Nazirliyində İtaliya səfiri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov oktyabrın 8-də İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Klaudio Taffurini qəbul edib.

Görüşdə Azərbaycan və İtaliya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu qeyd edilib, bu münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində daha da inkişaf etdirilməsi və genişləndirilməsi üçün əlverişli imkanların mövcudluğu vurğulanıb.

səh. 3

## Onların ulduzu "Səhnədə" parladı

### Müsabiqənin qalibləri bəlli olub

Azərbaycan Gənclər Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və "RÄNG" leyblının tərəfdaşlığı, "GəncSİMA" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən "Səhnədə" müsabiqəsinin qalibləri elan olunub.

Müsabiqənin "Mədəniyyət" telekanalı ilə canlı yayımlanan final gecəsində Bakı, Gəncə, Naxçıvan, Şəki, Quba, Lənkəran və Yevlax şəhərlərində keçirilən canlı kastinqlərdən seçilmiş 10 iştirakçının səhnə ifaları təqdim edilib.

Sevda Ələkbərzadə, Pərviz İsaqov, İlhamə Qasımova, Aytən İsmixanova, Natəvan Həbibi, Muxtar Abseynov, Nərmin Kərimbəyovanın yer aldığı münsiflər heyətinin rəyi və müsabiqənin rəsmi saytı üzərindən səsvermələr nəticəsində Lalə Abdulrəhimli, Aminəxatun Şirməmmədova və Rüstəm İbrahimov qalib elan olunub.

Final konsertinin sonunda gənc ifaçıların iştirakı ilə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Zəfərimizə ithaf olunan "Ey Azərbaycanım!" mahnısı səsləndirilib.




Qeyd edək ki, bu ilin əvvəlində elan olunan müsabiqənin əsas məqsədi Azərbaycanın ifaçılıq istedadı olan gənclərini kəşf edərək onların qabiliyyətlərinin inkişafı və sənətdə öz yerini tapmasına dəstək olmaq, vətənpərvərlik mövzusunda mahnıların gənc ifaçılar tərəfindən ifa edilməsi və gənclər arasında təbliği idi.

Xatırladaq ki, qalib ifaçılarla "RÄNG" leyblı arasında birillik prodüserlik müqaviləsi imzalanacaq.



## 113-cü mövsümə "Qıpçaq rəqsləri"nin premyerası ilə

Pandemiya ilə əlaqədar uzunmüddətli məcburi fasilədən sonra oktyabrın 9-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı 113-cü mövsümünə premyera ilə başlayıb. Kollektiv rus bəstəkarı Aleksandr Borodinin "Qıpçaq rəqsləri" baletini təqdim edib.

səh. 3

## Animasiya film layihələri üzrə vorkşopa ərizə qəbulu

Annecy Festivalı (Fransa), Saqanima Gürcüstan Animasiya Assosiasiyası və Animafilm Festivalı (Azərbaycan) birgə "Animated Film Project Pitching" vorkşopuna ərizə qəbulu elan edir.

"Animafilm" Beynəlxalq Animasiya Festivalı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Gürcüstan Milli Kino Mərkəzi və Tbilisi Bələdiyyəsinin dəstəyi ilə Annecy Beynəlxalq Animasiya Film Festivalı (MİFA), Gürcüstan Film-Abxazeti Kino Mərkəzi, Kvali XXI Film Studiyası və Saqanima Gürcüstan Animasiya Assosiasiyası tərəfindən təşkil edilən 7-ci "Animated Film Project Development/Pitching" vorkşopuna qoşulur.

2021-ci il noyabrın 8-dən 12-dək Tbilisidə keçiriləcək 5 günlük vorkşop (işçi dili – ingilis dili) Azərbaycan və Gürcüstan animasiya müəllifləri üçün məşhur fransız prodüser Olivier Catherinin rəhbərliyi altında layihələrini inkişaf etdirmək və təqdim etmək üçün əla fürsət yaradacaq.

Vorkşopun sonunda Annecy Festivalının mütəxəssisləri tərəfindən seçilmiş bir layihə 2022-ci ildə festival üçün MIFA akkreditasiyasına layiq görüləcək. Seçilmiş bir layihə isə 2022-ci il üçün biraylıq "Fontevraud Residence" alacaq. Fransa və Gürcüstana səyahət edəcək azərbaycanlı iştirakçıların səyahət xərcləri Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən qarşılanacaq.

## Jest dilində "danışan" "Yeddi gözəl"

VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində keçirilən çoxsaylı tədbirlərdən biri də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının "Nizami ili" çərçivəsində dahi şairin "Yeddi gözəl" poemasının elektron kitabının ardınca əsərin jest dilində tərcüməsinin təqdimatı idi.

Məlum olduğu kimi, sərgidə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Mədəniyyət Nazirliyi və Respublika Uşaq Kitabxanasının birgə əməkdaşlığı ilə "Yeddi gözəl" poeması əsasında uşaqlar üçün işlənmiş elektron kitab təqdim edilmişdi.

davamı səh. 3-də

### "Fulya" sənədli filmi tamaşaçı qarşısına çıxdı




səh. 3

### Əfrasiyab Bədəlbəylinin "Nizami" operası Heydər Əliyev Sarayında səhnəyə qoyulacaq

səh. 3



### Xalq artisti Ağakişi Kazımov vəfat edib

səh. 6

№77 (1854)
13 oktyabr 2021
www.medeniyyet.az

# Azad edilmiş torpaqlarda xalqımız əbədi yaşayacaq



əvvəli səh. 1-də

Prezident diqqətə çatdırıb ki, işğalçı Ermənistan ordusu gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik: “Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək, doğrudan da, çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik... Ermənistan rəhbərliyi və Ermənistan ictimaiyyəti gördü ki, bizim üçün bütün torpaqlar bizim torpaqdır – istər Füzuli olsun, istər Cəbrayıl olsun, istər Zəngilan olsun, istər Hadrut olsun, Şuşa olsun, Suqovuşan olsun. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrini işğalçılardan azad etmək Ermənistana göstərdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq. Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq”.

Prezident qeyd edib ki, Azərbaycanın inzibati ərazi bölgüsünə görə Hadrut qəsəbəsi Xocavənd rayonunun tərkib hissəsidir: “Vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan Hadrut və Martuni rayonlarını biz birləşdirdik və Xocavənd rayonu yaradıldı. Onu da bildirməliyəm ki, keçmiş Martuni rayonunun da təqribən 55-60 faizi işğalçılardan azad edilib və Azərbaycan vətəndaşları o bölgələrə də qayıdacaqlar”.

İlham Əliyev çıxışında onu da bildirib ki, işğal etdikləri bütün əraziləri dağıdıb talayan ermənilər bu illər ərzində hətta özlərinin yaşadıqları yerlərdə də quruculuq işi görməyib, necə deyərlər, daşı daş üstünə qoymayıblar: “Siz Hadrutu tanıyırsınız, burada yaşamısınız, olmusunuz, yaxın kəndlərdə də yaşamısınız, burada bir neçə kəndin nümayəndələri var. Burada, demək olar ki, 30 il ərzində heç nə dəyişilməyib, hərbçilər üçün iki bina tikilmişdi, bir məktəb də təmir olunmuşdu. Qalan bütün binalar necə var idi, elə də qalıb. Görün yollar, binalar nə gündədir... Sual olunur, bəs 30 il ərzində Ermənistan dövləti xarici ermənilərdən milyonlarla pul alıb. Onlar hər il marafon düzəldirdilər, hər il təqribən yüz milyon dollardan çox pul yığılırdı. Onu vurun 30 ilə, görün təxminən nə qədər pul edir. Mən indi bütün bu bölgələrə gedirəm – Hadrutda da, kəndlərin bir çoxunda da, Xocalının Çanaqçı, Sığnax kəndlərində də olmuşam. Azıx olsun, Tuğ olsun, Susanlı olsun və başqa kəndlər – hamısı bərbad vəziyyətdədir... Deməli, Ermənistan rəhbərliyi, onun keçmiş oğru rəhbərliyi, sadəcə olaraq, dünyanın zəngin ermənilərini aldadaraq, marafonlar düzəldərək o pulları cəlb edib özləri üçün bildikləri kimi xərcləyiblər...

İndi burada əyləşənlərin bir neçəsi Tuğ kəndindəndir. Mən sizi Tuğ kəndinə də aparacağam, görərsiniz kəndi nə günə qoyublar. Mən orada olanda dəhşətə gəldim. Onlar Tuğda hər il müxtəlif festivallar təşkil edirdilər. Xaricdən qonaqlar cəlb olunurdu, gəlirdilər və belə bir videogörüntü yaradılırdı ki, sanki çox inkişaf etmiş yerdir. Dağılmış vəziyyətdədir, məktəb dağılıb, mədəniyyət evi dağılıb, binalar demək olar ki, hamısı köhnəlib. Yəni, bax, budur Ermənistan işğalının əsl siması”.

### “Hadrutu mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik”

Prezident daha sonra deyib: “Biz Hadrutu bərpa edəcəyik. Hadrutun baş planı, onun ilkin versiyası mənə təqdim edildi. Mənim bir çox iradlarım olub, ona görə mən bu gün o planı gətirmədim. Çünki hələ onun üzərində işləmək lazımdır. Ancaq hesab edirəm ki, yaxın 1 ay ərzində bizim memarlar, inşaatçılar yeni plan üzərində işləyəcəklər, təqdim olunacaq və biz onu təsdiq edəcəyik.

Bu gün isə artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, “Hadrut” yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir. Çünki sovet vaxtında Hadrut qəsəbəsində yaşayanların əksəriyyəti ermənilər idi. Onlar, əlbəttə ki, burada məscidin inşasına imkan verməzdilər və bilirik ki, bütövlükdə sovet dövründə – ateizm dövründə məscid tikmək mümkün deyildi. Biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk.

Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda, qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bu gündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik.

Qəsəbənin və Xocavənd rayonunun inkişafı ilə bağlı əsas istiqamət kənd təsərrüfatı olacaq – bitkiçilik, heyvandarlıq, üzümçülük. Burada üzümçülük ənənələri olubdur, üzüm üçün çox münbit şərait var. Kənd təsərrüfatı ilə bərabər, bura çox dəyərli turizm mərkəzi olacaq. Çünki Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası - bunlar burada yerləşir.

Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, hotellər tikmək üçün azərbaycanlı və xarici investorları da dəvət etmək istəyirəm. Çünki dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır.

Bizim Xocavənd rayonunun, Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı çox böyük planlarımız var. Biz bu gün bu planların icrasına start verdik”.

***

Görüşdə Xocavənd rayonunun ictimaiyyəti adından Milli Məclisin deputatı Elman Məmmədov, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Qarabağın tanınmış nəsillərindən olan Cavad bəy Rzabəy oğlu Məlik-Yeqanovun nəvəsi Tamilla Kəngərlinskaya, Əməkdar müəllimlər Asif Cahangirov, Gültəkin Ağayeva, Azərbaycan Tibb Universitetinin Ümumi cərrahiyyə kafedrasının professoru Mübariz Əliyev çıxış ediblər.



### Qarabağda hər bir torpaq bizim üçün cənnətdir, əzizdir

Dövlət başçısı görüşün sonunda bir daha Vətən müharibəsində qazandığımız tarixi Zəfərin əhəmiyyətini vurğulayıb: “Zəfərdən danışarkən, əlbəttə ki, biz xalqımızın həmrəyliyini qeyd etməliyik. Çünki Azərbaycan xalqı Ordumuzun arxasında dayandı, mənim arxamda dayandı, bizə inandı və tam əmin idi ki, biz tarixi Qələbə qazanacağıq və belə də oldu. Azərbaycan tarixi Zəfər çaldı. Bu müharibə haqqında hələ çoxlu kitablar, məqalələr yazılacaq, müharibə iştirakçıları öz xatirələrini bölüşəcəklər. Ancaq mən bütün bu işlərə rəhbərlik edən şəxs kimi, Ali Baş Komandan kimi bir daha gördüm Azərbaycan xalqı nə qədər böyük xalqdır. Biz təmas xəttinə yaxın olan bölgələrdə sığınacaqlar yaratmaqla bağlı tədbirlər keçirəndə vətəndaşlar özləri gəlib kömək göstərirdilər. Ordumuzun təchizatı tam təmin edilmişdi, heç bir ehtiyac yox idi. Amma vətəndaşlar özləri gəlib kömək göstərməyə can atırdılar. Səfərbərliklə bağlı hərbi komissarlıqların qabağında minlərlə gənc könüllü olaraq döyüşə getmək istəyirdi. Bəzilərinə deyilirdi ki, ehtiyac yoxdur, inciyirdilər. Mənə nə qədər məktub gəldi ki, məni qoymurlar gedim, Ali Baş Komandan, xahiş edirəm mənə icazə verin. Yaralılar yaraları sağalmadan durub döyüşə gedirdilər. Bir nəfər də olsun fərari olmamışdır, bir nəfər də. Baxın, biz 44 gün döyüş apardıq, özü də bəzi döyüşlər çox ağır idi, xüsusən də birinci mərhələdə, təmas xəttini yarmaq lazım olanda ölümə gedirdilər bizim vətəndaşlar. Məhz Qələbənin səbəbi budur.

Əlbəttə, bütün başqa amillərlə bərabər, hazırlıq sistemli xarakter daşımışdı. Uzunmüddətli hərtərəfli hazırlıq işləri gedirdi – iqtisadi, beynəlxalq münasibətlər, ordu quruculuğu sahələrində, vətənpərvərlik, düşmənə nifrət hissi aşılanırdı gənclərimizə. Bu hazırlıq nəticədə belə möhtəşəm Qələbəyə gətirib çıxardı ki, bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan, xaricdə yaşayan milyonlarla azərbaycanlı bu gün fəxr edir, haqlı olaraq fəxr edir, hamımız fəxr edirik”.

İşğaldan azad olunmuş bölgələrimizdə bu yerlərin sakinləri – artıq keçmiş məcburi köçkünlərlə görüşlərin bundan sonra daha tez-tez keçiriləcəyini vurğulayan dövlət başçısı deyib: “Bu gün artıq məcburi köçkün anlayışı yoxdur. Bu gün keçmiş məcburi köçkünlər evlərinə dönməyə hazırlaşırlar. Xocavəndə birinci səfərdir, bundan sonra bu səfərlər təşkil ediləcəkdir. Biz çalışacağıq, necə ki, müharibəni qısa müddət ərzində başa vurduq, eyni zamanda, bu bərpa işlərini də maksimum qısa müddət ərzində başa vuraq ki, siz qayıdasınız, bu cənnətməkana qayıdasınız. Hər bir torpaq bizim üçün cənnətdir, əzizdir. Azad edilmiş torpaqlarda Azərbaycan xalqı bundan sonra əbədi yaşayacaqdır”.

# Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyi qeyd olunacaq

Prezident İlham Əliyev oktyabrın 12-də Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Kamil Müseyib oğlu Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda bildirilir ki, Kamil Əliyev (1921-2005) bütün ömrünü xalqımızın mədəniyyət tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf edib. Fitri istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaradıb, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirib. Kamil Əliyevin əsərləri dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında dəfələrlə nümayiş etdirilib. Böyük sənətkar xalçaçı kadrların hazırlanması işinə də mühüm töhfələr verib.

Sərəncama əsasən, Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla Mədəniyyət Nazirliyinə Xalq rəssamı Kamil Əliyevin 100 illiyi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

# Muzey kolleksiyalarının toplanması mövzusunda beynəlxalq konfrans

13-15 oktyabr tarixində Bakıda Beynəlxalq Muzeylər Şurasının (İCOM) Azərbaycan Milli Komitəsi, İCOM-un Muzey İdarəçiliyi (İNTERCOM) və Etnoqrafiya Muzeyləri və Kolleksiyaları (İCME) üzrə beynəlxalq komitələrinin birgə əməkdaşlığı ilə "Muzeylərdə kolleksiyaların toplanması siyasətinin dəyişdirilməsi: liderlik və sosial məsuliyyət zərurəti" adlı konfrans keçiriləcək. Tədbir Mədəniyyət Nazirliyi və Milli Xalça Muzeyinin dəstəyi ilə təşkil olunacaq.

Hibrid formatda (canlı və onlayn iştirak) keçirilən konfransın açılışı 13 oktyabr tarixində saat 10:00-da Azərbaycan Milli Xalça Muzeyində baş tutacaq. Konfransda Azərbaycan, Rusiya, Sloveniya, Xorvatiya, Almaniya, Rumıniya və Niderlanddan 10 mütəxəssis, o cümlədən beynəlxalq komitələrin sədrləri iştirak edəcək. Bununla yanaşı, konfransa onlayn olaraq 100-ə yaxın xarici və yerli muzey mütəxəssisi qoşulacaq.

Üç gün davam edəcək konfransda “Muzeylərin dekolonizasiyası: mədəni dəyərlərin tarixi vətənlərinə qaytarılması və müstəmləkəçilik dövrünün neqativ nəticələrinin aradan qaldırılması”, “Muzeylər və etnoturizm” və “Müasir dövrdə muzey idarəçiliyi” mövzuları üzrə 23 məruzə dinləniləcək.

Konfrans çərçivəsində mədəni proqram da nəzərdə tutulub. Qonaqlar Azərbaycan Milli Xalça Muzeyi ilə yanaşı, “İçərişəhər” Muzey Mərkəzi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli İncəsənət Muzeyi və Milli Azərbaycan Tarixi Muzeyini ziyarət edəcəklər.

# İşğal altında olmuş Azərbaycan ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqları

əvvəli səh. 1-də

Təqdimatda Milli Məclisin birinci vitse-spikeri Əli Hüseynli, təhsil nazirinin müavini Muxtar Məmmədov, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva, hesabat üzrə işçi qrupunun həmsədri, professor Əmir Əliyev və başqaları çıxış ediblər.

İşçi qrupunun üzvləri, professorlar Leonid Timçenkonun (Ukrayna) və Aron Salimqereyin (Qazaxıstan) videoçıxışları təqdim olunub.



Qeyd edək ki, hesabat giriş, ümumi yanaşma və metodologiya, işğal altında olmuş Azərbaycan əraziləri haqqında ümumi məlumatlar, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul edilmiş beynəlxalq sənədlərin təhlili, məcburi köçkünlərin pozulmuş hüquq və azadlıqları, Ermənistan tərəfindən törədilən beynəlxalq cinayətlər, işğalla əlaqədar vurulmuş ziyanın təxmini əhatə dairəsi, mövcud beynəlxalq mexanizmlər, digər dövlətlərin təcrübəsi, Ermənistanın beynəlxalq-hüquqi məsuliyyəti, 2020-ci ildə işğaldan azad edilmiş Azərbaycan əraziləri üçün zəruri olan ilkin humanitar yardım, nəticə və əlavələrdən ibarətdir.

“Azərbaycan dövləti bir çox qurumlar vasitəsilə Ermənistanın Azərbaycana işğal dövründə və işğaldan sonra vurduğu ziyanla bağlı hesabatlar hazırlayır”.

Bu sözləri Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə “İşğal altında olmuş Azərbaycan ərazilərində məcburi köçkünlərin pozulmuş hüquqlarına dair” kompleks beynəlxalq hesabatın təqdimatı ilə bağlı keçirilən tədbirdə deyib.

O bildirib ki, hazırda UNESCO və İSESCO-nun nümayəndə heyətlərinin Azərbaycana dəvət olunması ilə bağlı danışıqlar aparılır: “İşğaldan azad olunmuş ərazilərdə biz çox şeyi bərpa edə bilərik, məktəb tikərik, yol çəkərik, meşələr salarıq. Amma elə şeylər var ki, bu bizim tariximizə aiddir. Tarixi abidələrin çox hissəsi dağıdılıb, məhv edilib. Bizim üçün maraq kəsb edən fəaliyyət bərpası mümkün olmayan abidələr üçün zərərin müəyyən edilməsini, Ermənistanın cəzalandırılmasını təmin etməkdir. Qarabağ elə ərazi olub ki, orada mədəniyyətin inkişafı həmin mühitə bağlı olub. Bu gün o mühit olmadığı üçün köçkünlərin mədəni hüquqları da pozulub. Bununla bağlı da biz hansı işlər görə bilərik, bu, bizim üçün maraqlıdır. Buna görə də hesabatı hazırlayan BDU-nun İşçi Heyəti ilə əməkdaşlıq etməkdə maraqlıyıq”.

# Bakıda kitab bayramında növbəti görüşədək

əvvəli səh. 1-də

“Günün qonağı” olan Xalq yazıçısı Çingiz Abdullayev sərgidə gənc nəslə Vətən sevgisini, təhsilin önəmini aşılayan yazarların kitablarının təqdim olunmasını yüksək qiymətləndirdi.

Şairə Nigar Həsənzadənin “İgidlərin sözü” layihəsi xüsusi maraqla qarşılandı. Layihə çərçivəsində qazilər 44 günlük Qarabağ müharibəsi vaxtı yazılmış şeirlərini səsləndirdilər.

Sərgidə qardaş Türkiyənin nəşriyyatları geniş tərkibdə təmsil olundu. Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Şule Yıldız sərginin işini bəyəndiklərini, növbəti illərdə sərgidə iştirakla bağlı daha maraqlı planlarının olduğunu dedi. “İmza günü” keçirilən türk yazıçısı və tədqiqatçısı Sinan Canan sərgiyə, bilavasitə kitaba ölkəmizdə geniş marağın olmasını təqdir etdi.

Yazıçı-publisist, Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı bildirdi ki, bu sərgi Azərbaycanda kitab çapının inkişafına təkan verəcək, çünki burada əlaqələr qurulur, çoxsaylı görüşlər keçirilir və bunun nəticəsində yeni layihələr üçün imkanlar yaranır.

Türkiyədə yayımlanan “Çukur” adlı serialda İdris Koçovalı obrazı ilə milyonların sevgisini qazanmış məşhur aktyor və yazıçı Ercan Kesal sərginin qonağı oldu. Çoxsaylı oxucuları ilə görüş keçirdi və görüşə qatılanlar üçün kitablarını imzaladı.

Yazıçı, şair Elxan Elatlı görüş zamanı çoxsaylı gənc ziyarətçilərin əhatəsində - “İndi tez-tez deyirlər ki, gənclər az kitab oxuyurlar, məncə, sərgi bu faktı uğurla təkzib etdi”, - dedi.

Sərginin keçirildiyi günlərdə foyedə uşaqlar üçün Nizami Gəncəvinin əsərlərinin motivləri əsasında hazırlanmış tamaşa, həmçinin “Tıq-Tıq xanım” və “Cırtdan” kukla tamaşaları təqdim edildi, müxtəlif ustad dərsləri (xalça eskizlərinin hazırlanması, ebru sənəti) keçirildi. Uşaq yazıçısı Solmaz Amanova milli nağıl personajlarını kitablar və oyunlar ilə azyaşlı ziyarətçilərə təqdim etdi.

Sərgidə bir ilk də yaşandı: sevdikləri yazıçının oxucularla görüş keçirəcəyini öyrənən gənclər – Cavidan Əliyev və Rəhmilə Ağayeva toy günü sərgini ziyarət etdilər.

Ümumilikdə iştirakçıların tərkibi, xüsusi qonaqların qatılımı, çoxsaylı tədbirlərin təşkili və ziyarətçi sayı baxımından Bakı Beynəlxalq Kitab Sərgisi regionun ən böyük kitab bayramı olduğunu təsdiqlədi. Ziyarətçilər və iştirakçılar bunu tədbir boyunca dəfələrlə xoş sözlərlə ifadə etdilər.

# “Cümhuriyyət yazıları” – filoloq və diplomatın qələmindən

Oktyabrın 9-da Bakı Ekspo Mərkəzində tanınmış filoloq, diplomat Vilayət Quliyevin “Cümhuriyyət yazıları” kitabının təqdimat mərasimi keçirilib.




VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində gerçəkləşən təqdimatda mədəniyyət naziri Anar Kərimov, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov və kitabsevərlər iştirak edib.

Tədbirdə çıxış edən filologiya elmlər doktoru, professor, 20 ildən çoxdur diplomatik sahədə çalışan Vilayət Quliyev müəllifi olduğu kitab haqqında məlumat verib. Qeyd edib ki, iki bölmədən ibarət kitabın birinci hissəsində Azərbaycan Cümhuriyyətinin 100 illiyi ərəfəsində müxtəlif mətbuat orqanlarında çap olunmuş elmi-publisist səpkili məqalə və esselər, ikinci hissədə isə Cümhuriyyət tarixinə dair Azərbaycan dilinə ilk dəfə tərcümə edilən sənəd və materiallar yer alıb: “Cümhuriyyət irsini toplayıb nəşr etmək, Cümhuriyyət xadimlərinin şəxsiyyət və fəaliyyətinə obyektiv, qərəzsiz qiymət vermək, bütün ölkə miqyasında geniş maarifçilik işi aparmaq lazımdır. İnsanlarımızın belə bir fəaliyyətə təkcə marağı yox, həm də böyük ehtiyacı var. Bu amildən çıxış edərək indiyə qədər Cümhuriyyətlə bağlı elmi fəaliyyətimdə mənbələrin aşkara çıxarılması, tərcüməsi, nəşri məsələsinə, tanıtma və təbliğ işinə daha çox üstünlük vermişəm”.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək bildirib ki, Vilayət Quliyev təkcə tarixçi, ədəbiyyatşünas yox, eyni zamanda yüksək səviyyəli dövlət xadimidir: “Vilayət Quliyev böyük bir missiyanı həyata keçirir. O, ölkəmizə, cəmiyyətimizə çox vacib olan Cümhuriyyətin tarixi, onun qurucuları haqqında məlumatları çatdırır. Onun kitablarını oxuyaraq öz tariximizi bilir, onunla qürur duyuruq. Tarixini bilən insan cəmiyyətdə daha güclü mövqe tutur. Bu sahədə fəaliyyətinə görə Vilayət Quliyevə təşəkkür edirəm”.

Daha sonra çıxış edən Bakı Avrasiya Universitetinin professoru Ədalət Tahirzadə belə dəyərli əsəri ərsəyə gətirdiyinə görə Vilayət Quliyevə təbriklərini çatdırıb, yeni yaradıcılıq uğurları arzulayıb.

Sonda tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, kitabda elmi dövriyyəyə yeni daxil edilən faktlar əsasında Cümhuriyyət dövrünün ayrı-ayrı görkəmli şəxsiyyətlərinin portretləri və ilk respublikamızın həyatındakı diqqətəlayiq hadisələrin mənzərəsi yaradılıb. Yeni nəşr tarixçilərə, filoloqlara, politoloqlara, bütünlükdə milli dövlətçiliyimizin yaradılması, keşməkeşli fəaliyyəti, görkəmli simaları və irsi ilə maraqlanan geniş oxucu kütləsi üçün maraqlı mənbədir.

**NURƏDDİN**

# Teatrşünas alimin kitabları təqdim olundu

## “Azərbaycan teatr tarixi” beş, “Səhnə fədailəri” üç cilddən ibarətdir




Yeni nəşrlərin təqdimatları, imza günləri ilə zəngin olan VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 9-da tanınmış teatrşünas alim, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimlinin “Azərbaycan teatr tarixi” və “Səhnə fədailəri” kitablarının təqdimatı keçirildi.

Professor İlham Rəhimli kitablar haqqında məlumat verərək qeyd etdi ki, “Azərbaycan teatr tarixi” fundamental tədqiqat əsəri 5 cildən ibarətdir. Kitabda Azərbaycan milli teatr tarixi min illər əvvəllərdən mövcud olan xalq oyun-tamaşalarından, meydan teatrından başlayaraq günümüzə qədər olan dövrü əhatə edilib. Azərbaycan teatrşünaslığında peşəkar səhnə sənətimizin bütün tarixi mərhələləri – təşəkkülü, inkişaf tarixi, əsas yaradıcılıq mərhələləri, bədii-estetik səciyyələri, poetikasının əsasları, janr-üslub müxtəlifliyi ilk dəfə konseptual şəkildə, elmi-nəzəri prinsiplərlə, xronoloji ardıcıllıqla araşdırılıb.

“Səhnə fədailəri” kitabı haqqında danışan professor bildirdi ki, nəşrdə görkəmli teatr xadimləri haqqında portret-oçerklər toplanılıb. Uzun illərin ciddi yaradıcılıq axtarışları nəticəsində hasilə gələn və zəngin faktlar toplusu olan kitab 3 cildən ibarətdir.

Xalq artisti Nurəddin Mehdixanlı çıxışına H.Z.Tağıyevin “Bir oğlan oxuyarsa, bir nəfər, bir xanım təhsil alarsa, ailə təhsil almış olur və beləliklə, bir millət təhsilli olur” sözləri ilə başladı. Qeyd etdi ki, kitab oxuyan xalqlar dünyada çox şeyin sahibi olurlar: “Kitab insanı insan edən ən güclü vasitələrdən biridir. Çox sevinirəm ki, informasiya texnologiyalarının inkişaf etdiyi bu dövrdə gənclərimiz kitabın yanındadır. Deməli ki, kitaba maraq hələ də çoxdur”.

Xalq artisti Mərahim Fərzəlibəyov İlham Rəhimlini Azərbaycan teatrının canlı ensiklopediyası kimi səciyyələndirdi: “Onun əsərlərində böyük bir fəlsəfə, incəsənət xətti var. İlham Rəhimli hansısa böyük bir rəssamın əsərlərinə baxıb monoqrafiya yaza bilər. Nə yaxşı ki, İlham Rəhimli kimi teatrşünas alimimiz var”.

“Şərq-Qərb” nəşriyyat evinin nəşr üzrə direktor müavini-nəşriyyat departamentinin müdiri Sevil İsmayılova, departamentin elm və mədəniyyət şöbəsinin baş redaktoru Nərgiz Cabbarlı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Səhnə danışığı kafedrasının müdiri, Əməkdar artist, dosent Azad Şükürov belə dəyərli əsərləri ərsəyə gətirdiyinə görə İlham Rəhimliyə təbriklərini çatdırıb, yeni yaradıcılıq uğurları dilədilər.

**N.MƏMMƏDLİ**

# Mədəniyyət Nazirliyində İtaliya səfiri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov oktyabrın 8-də İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Klaudio Taffurini qəbul edib.



Qonağı səmimi salamlayan Anar Kərimov Azərbaycan və İtaliya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib, bu münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində daha da inkişaf etdirilməsi və genişləndirilməsi üçün əlverişli imkanların mövcudluğunu vurğulayıb. Nazir iki ölkə arasında tarixən mövcud olan mədəni əlaqələrə diqqət çəkib, bu zəmində mədəni əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verildiyini qeyd edib.

Görüş zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən geniş bərpa və quruculuq işləri haqqında məlumat verilib, müxtəlif istiqamətlər üzrə, o cümlədən mədəni irsin bərpası sahəsində İtaliya təcrübəsinin öyrənilməsi və birgə əməkdaşlıq məsələləri müzakirə olunub.

Səfir Klaudio Taffuri qəbula görə minnətdarlığını bildirərək Azərbaycanla İtaliyanın dost və strateji tərəfdaşlar olduğunu deyib, səfir kimi çalışacağı müddət ərzində ikitərəfli əlaqələrin daha da gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib. İki ölkə arasında gələcək inkişaf perspektivlərindən danışan diplomat bu xüsusda uğurlu nəticələrin əldə olunacağına inamını ifadə edib.

Görüş tərəfləri maraqlandıran məsələlərin müzakirəsi ilə davam edib.

# Azərbaycan və Türkiyə nəşriyyatlarının işbirliyi

## Seminarda müzakirə edilib




VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində “Azərbaycan və Türkiyə nəşriyyatlarının işbirliyi və cari vəziyyət” mövzusunda iki ölkə naşirlərinin iştirakı ilə seminar keçirilib.

Seminarda Azərbaycan Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli və şöbənin əməkdaşı Xəyal Məmmədov, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və Yayımlar Baş İdarəsinin müdir müavini Taner Beyoğlu, Türkiyə Naşirlər Birliyinin sədri, Beynəlxalq Nəşriyyatlar Birliyi İdarə Heyətinin üzvü Kenan Kocatürk, İstanbul Ticarət Odası İdarə Heyətinin üzvü Münir Üstün iştirak ediblər.

Ölkəmizdən nəşriyyat rəhbərlərinin də qatıldığı tədbirdə fikir mübadiləsi aparılıb, bu sahədə mövcud vəziyyət təhlil edilib və gələcək perspektivlər müəyyənləşdirilib.

Seminarın məruzəçiləri Azərbaycanda kitab sənayesinin, xüsusən nəşriyyat işinin təşkilində Türkiyə təcrübəsinin tətbiqi məsələlərinə diqqət çəkiblər.

Görüşdə həmçinin müasir kitab sənayesi işində rəqəmsallaşmanın əhəmiyyəti vurğulanıb və bu istiqamətdə təcrübə mübadiləsi barədə ətraflı müzakirələr aparılıb.

# “Fulya” sənədli filmi tamaşaçı qarşısına çıxdı

Xəbər verdiyimiz kimi, Azərbaycan və Türkiyənin müştərək istehsalı olan “Fulya” sənədli filminin qardaş ölkədə premyerası keçirilib. Türkiyəli telejurnalist Fulya Öztürkün 2020-ci ilin Vətən müharibəsi ilə bağlı həqiqətlərin dünya birliyinə çatdırılmasında fədakar fəaliyyətindən bəhs edən ekran əsəri oktyabrın 5-də İstanbulda, ayın 9-da isə Ankara şəhərində nümayiş olunub.

Premyerada filmin qəhrəmanı Fulya Öztürk, ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov, Mədəniyyət Nazirliyinin Audiovizual və interaktiv media şöbəsinin sektor müdiri Rüfət Əliyev, filmin prodüserləri - “Azərbaycanfilm” Kinostudiyasının direktoru Fariz Əhmədov, “Dada Yapım” şirkətinin rəhbəri Özcan Dada, filmin yaradıcı heyəti, Ankarada yaşayan diaspor nümayəndələrimiz və digər qonaqlar iştirak ediblər.

Film 44 günlük Vətən müharibəsi zamanı cəsur reportyor kimi tanınan Fulya Öztürk və teleoperator Halil Kahramanın yaşadıqlarından bəhs edir. Filmin rejissorları Aykut Taşkın və Tahir Tahiroviç, təsvir rejissoru Cengizhan Durmaz, prodüserləri Özcan Dada və Fariz Əhmədovdur. Filmin çəkilişləri bu ilin iyun ayında Bakı, Gəncə, Bərdə və Tərtər ərazilərində aparılıb.

Qeyd edək ki, filmin Azərbaycanın kinoteatrlarında da nümayiş olunması nəzərdə tutulub.

# “Nizami” operası Heydər Əliyev Sarayında səhnəyə qoyulacaq

Heydər Əliyev Sarayı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi ilə əlaqədar görkəmli bəstəkar Əfrasiyab Bədəlbəylinin “Nizami” operasını səhnələşdirəcək. Layihə Mədəniyyət Nazirliyi, “BEAT Group” şirkəti və “VİSA”-nın dəstəyi ilə reallaşacaq.

Heydər Əliyev Sarayından verilən məlumata görə, tamaşa Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı və Azərbaycan Dövlət Akademik Filarmoniyasının Mahnı və Rəqs Ansamblı ilə birgə hazırlanacaq.

Layihənin ideya müəllifi Əməkdar artist Ramil Qasımov, rəhbəri Xalq artisti Fərhad Bədəlbəyli, tamaşanın quruluşçu rejissoru Əməkdar artist İnarə Babayeva, quruluşçu dirijoru Əməkdar artist Əyyub Quliyev və quruluşçu xoreoqrafı Əməkdar artist Ceyhun Qubadovdur.

Tamaşada Əməkdar artistlər Ramil Qasımov, İnarə Babayeva, həmçinin Rza Xosrovzadə, Elmir Rüstəmov, Mahir Tağızadə və Emin İsmayılov çıxış edəcəklər.

Əfrasiyab Bədəlbəyli “Nizami” operasını Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanının süjet və motivləri əsasında 1939-cu ildə yazıb. Operanın premyerası 12 dekabr 1948-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında keçirilib.

# “Qıpçaq rəqsləri”nin premyerası ilə

## Akademik Opera və Balet Teatrı yeni mövsümə başlayıb

Pandemiya ilə əlaqədar uzunmüddətli məcburi fasilədən sonra oktyabrın 9-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı 113-cü mövsümünə premyera ilə başlayıb. Kollektiv rus bəstəkarı Aleksandr Borodinin “Qıpçaq rəqsləri” baletini təqdim edib.



Tamaşanı mədəniyyət naziri Anar Kərimov, nazirlik aparatının məsul əməkdaşları, digər qonaqlar və sənətsevərlər izləyib.

Səhnə əsərinin quruluşunu Mixail Fokinin xoreoqrafiyası əsasında Azərbaycanın Əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Səmədov həyata keçirib. Musiqi rəhbəri və dirijoru Xalq artisti Yalçın Adıgözəlov olan tamaşada əsas rolları balet truppasının aparıcı solistləri – Əməkdar artist Nigar İbrahimova, Xalq artisti Gülağası Mirzəyev, gənc solistlər Fatimə Xələfova, Zəhra Tanrıverdiyeva və Seymur Qədiyev ifa ediblər.

Pandemiya qaydalarına əməl olunmaqla keçirilən tamaşa baletsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, bəstəkar A.Borodin “Knyaz İqor” operasının bir hissəsi olan “Qıpçaq rəqsləri”ni 1875-ci ilin yayında ərsəyə gətirib. Bəstəkar bu opera üzərində 18 il işləyib, lakin tam olaraq yazıb başa çatdıra bilməyib. Onun ölümündən sonra musiqi materialları əsasında A.Qlazunov operanı tamamlayıb, N.Rimski-Korsakov isə klavirin böyük bir hissəsini orkestr üçün işləyib. Operanın premyerası 23 oktyabr 1890-cı ildə Sankt-Peterburqun Mariinski Teatrında baş tutub. Xoreoqraf L.İvanovun quruluş verdiyi “Qıpçaq rəqsləri” tamaşaçılarda dərin təəssürat oyatmışdı. Sonradan “Qıpçaq rəqsləri” müstəqil balet tamaşası kimi bir çox teatrlarda səhnəyə qoyulub.

# Jest dilində “danışan” “Yeddi gözəl”




əvvəli səh. 1-də

Bu layihənin davamı kimi ərsəyə gələn jest dilində tərcümə də böyük marağa səbəb oldu. Bunu tədbirə gələn xüsusi tipli məktəbin şagirdləri və ümumən nitq və eşitmə məhdudiyyətli qonaqların çöhrəsindən sezmək mümkün idi.

Rəhbəri və ideya müəllifi olduğu layihə barədə məlumat verən kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova geniş auditoriyaya təqdim etdikləri işin marağa səbəb olmasından məmnunluğunu bildirdi. Qeyd etdi ki, Respublika Uşaq Kitabxanası 2019-cu ildən bu profilli uşaqlar üçün layihələr həyata keçirir. Layihə üzrə bütün kitablar həm Brayl əlifbası, həm də eşitmə və nitq məhdudiyyətli uşaqlar üçün videoformatda hazırlanıb və saytın müvafiq bölməsində yerləşdirilib. Eyni zamanda bu kitablar jest dilinə tərcümə edilərək xüsusi internat məktəblərinin kitabxanalarına hədiyyə olunub.

Bu qəbil uşaqlar üçün vəsaitlərə böyük ehtiyac olduğunu da dilə gətirən direktor bu istiqamətdə təkcə kitabxanaların deyil, ayrı-ayrı qurum və təşkilatların maraq göstərməsinin vacibliyini vurğuladı: “Biz bu işi kitabxanamızın qızıl fondunda qorunan “Yeddi gözəl” poemasından uşaqlar üçün yeddi hekayənin jest dilində tərcüməsi ilə davam etdiririk. Tədbir başlayarkən siz xorda Dövlət himnimizi dinlədiniz. Xorda iştirak edənlər 2 nömrəli xüsusi uşaq internat məktəbinin şagirdləri idi. Onlar nitq və eşitmə məhdudiyyəti olsa da, sağlam uşaqlarla – Cövdət Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbinin şagirdləri ilə birlikdə oxudular. Gördüyünüz kimi, onlar bir-birini artıq bir baxış, bir jestdən gözəl anlayırlar. Kitabxananın da əsas məqsədi sağlam və sağlamlıq imkanları məhdud uşaqları bir araya gətirmək, onların ünsiyyətini təmin etmək, əlaqə qurmalarına dəstək olmaqdır. Düşünürəm ki, bu istiqamətdə işbirliyimiz, bir-birimizə dəstəyimizlə xüsusi diqqətə ehtiyacı olan uşaqlarımızla bağlı layihələrimiz daha çox olmalıdır”.

Çıxışın ardınca gözlər ekrana dikildi və mətnin jest dilində təqdimatı başladı. “Silent Communication” təşkilatının qurucusu və rəhbəri Şamil Sabirzadə və təşkilatın jest dili üzrə təlimçi və tərcüməçisi Könül Quliyeva tərəfindən tərcümə edilən material nitq və eşitmə məhdudiyyətli izləyicilərin xüsusilə marağına səbəb oldu. Onlar rəngarəng illüstrasiya və qrafik elementlərlə zəngin mətnin ekran təsvirini məmnunluqla izlədilər.

Jest üzrə təlimçilərin də iştirak etdiyi təqdimat musiqi nömrəsi ilə başa çatdı. Bakı Musiqi Akademiyası Akademik vokal fakültəsinin tələbəsi, kitabxananın aktiv xüsusi oxucusu, görmə məhdudiyyətli fitri istedad sahibi Səməd Novruzovun ifasında “Sevgili canan” romansı dinlənildi.

**HƏMİDƏ**

# Vətən müharibəsinin daha bir iştirakçısı işlə təmin olunub

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər tariximizin şanlı salnaməsidir. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canını fəda edən qəhrəmanlarımızın ailələrinə, döyüşlərdə şücaət göstərən qazilərə diqqət və qayğı göstərmək bütün cəmiyyətimizin borcudur.

Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin sosial qayğılarının həll edilməsi üçün zəruri tədbirlər görülür. Mədəniyyət Nazirliyi, nazirliyin tabe müəssisələri tərəfindən də bu istiqamətdə müvafiq addımlar atılır, o cümlədən şəhidlərin ailə üzvlərinin, müharibə iştirakçısı olan insanların imkan daxilində işlə təmin olunması məsələlərinə baxılır.

Vətən müharibəsinin iştirakçısı, "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuş Kamran Həmzəyev Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzində (MEMİM) işə qəbul olunub. O, hazırda MEMİM-in Təlim-tədris şöbəsinin metodisti vəzifəsində çalışır. Mərkəzin əməkdaşları sırasına qatıldığı gündən diqqət görən Kamran Həmzəyev Vətən müharibəsində iştirakına görə və 25 yaşının tamam olması münasibətilə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanı ilə təltif olunub.

# "Nizamiganjavi.az" saytının təqdimatı keçirilib



Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Heydər Əliyev Mərkəzində "nizamiganjavi.az" saytının təqdimat mərasimi keçirilib.

Təqdimatda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniq, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, millət vəkili Müşfiq Cəfərov, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, şəhər ictimaiyyətinin nümayəndələri və ziyalılar iştirak ediblər.

Mərasimdə Gəncə Dövlət Dram Teatrının təqdimatında "Xəmsə"nin motivləri əsasında hazırlanmış ədəbi-bədii kompozisiya təqdim olunub. Gəncə Dövlət Filarmoniyasının solistləri – Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova və Ruhiyyə İsgəndərovanın ifasında musiqi parçaları səslənib. Tədbirdə həmçinin Gəncə şəhər uşaq incəsənət və rəssamlıq məktəblərinin rəsm sərgiləri nümayiş etdirilib.

# "Mədəniyyət kəndlərdə" layihəsi Yardımlıda



Masallı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə həyata keçirilən "Mədəniyyət kəndlərdə" layihəsi çərçivəsindəki növbəti tədbir Yardımlı rayonunun Çayüzü kəndində gerçəkləşib.

Mədəniyyət işçiləri, yerli rəsmi şəxslər, ziyalılar, media mənsubları və ictimaiyyət nümayəndələri iştirak etdiyi tədbirdə Yardımlının tarixi, adət-ənənələri, tanınmış ziyalıları, yaradıcı insanları və s. barədə məlumat verilib.

Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov çıxışında tədbirin həyata keçirilməsində rol alan mədəniyyət işçiləri və rayon rəsmilərinə minnətdarlıq edib. O, mədəniyyətin yerlərdə təbliğinin və kənd icmalarının tədbirlərə cəlb olunmasının əhəmiyyətini vurğulayıb, istedadlı gəncləri bu layihədə fəal iştiraka çağırıb.

Sonra mədəniyyət müəssisələrinin xalq sənətkarlığı nümunələri, rəsm və əl işlərindən ibarət sərgilərinə baxış keçirilib. Çayüzü kənd folklor klubu üzvlərinin ifasında şəhidlik məqamının ucalığını ifadə edən bayatılar deyilib, həzin musiqilər səsləndirilib. Məktəblilər isə hərbi-vətənpərvərlik mövzusunda şeir kompozisiyaları ifa ediblər.

Sonda tədbirlərdə fəal iştirak edən könüllülərə idarənin təşəkkürnaməsi təqdim olunub.

# "Zəfər" musiqi festivalı



Oktyabrın 11-də Ağdaş Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Habil Əliyev adına Ağdaş şəhər Uşaq musiqi məktəbində "Zəfər" musiqi festivalının açılış mərasimi keçirilib.

Tədbirdə Habil Əliyev adına Ağdaş şəhər və Ləki qəsəbə, Göyçay şəhər uşaq musiqi məktəblərinin, Ucar və Zərdab rayon uşaq incəsənət məktəblərinin şagirdləri iştirak ediblər. Ağdaş şəhər Uşaq musiqi məktəbinin direktoru Rafiq İsgəndərov qeyd edib ki, festival Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun böyük şücaəti nəticəsində əldə olunmuş böyük Qələbəyə həsr olunub. Oktyabr-noyabr ayları ərzində keçiriləcək festival çərçivəsində Ağdaş, Şəmkir, İsmayıllı və Sabirabad regional mədəniyyət idarələrinin tabeliyində fəaliyyət göstərən ümumilikdə 23 uşaq musiqi və incəsənət məktəblərinin xalq çalğı alətləri ifaçıları və xanəndəlik ixtisası üzrə şagirdlərinin iştirakı nəzərdə tutulub. Birinci tur münsiflər heyətinin iştirakı ilə regionlar üzrə Ağdaş, İsmayıllı, Şəmkir və Sabirabad rayonlarında, ikinci tur isə Ağdaş şəhər Habil Əliyev adına Uşaq musiqi məktəbində keçiriləcək.

Çıxışlar Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Arif Əsədullayev, Azərbaycan Milli Konservatoriyasının baş müəllimi, Xalq artisti Zabit Nəbizadə, AMK nəzdində Musiqi Kolleci Xalq çalğı alətləri şöbəsinin müdiri Cəfər Qafarlı və AMK-nin müəllimi Anar Niftullayevdən ibarət olan münsiflər heyəti tərəfindən 10 ballıq sistemlə qiymətləndiriləcək.

Festival qaliblərinin yekun qala-konserti və mükafatlandırılma mərasiminin noyabrın ilk 10 günlüyündə keçirilməsi nəzərdə tutulub.

Hazırladı: N.MƏMMƏDLİ

# Dahi şairin 880 illiyi münasibətilə Gəncədə növbəti ümumşəhər tədbiri

"Nizami Gəncəvi İli" çərçivəsində Gəncədə növbəti ümumşəhər tədbiri təşkil olunub. Tədbir Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsi, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsi və şəhər Təhsil İdarəsinin təşkilatçılığı ilə reallaşıb.

İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, deputatlar Pərvin Kərimzadə və Müşfiq Cəfərov, idarə, müəssisə, təşkilat və hüquq mühafizə orqanlarının rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə əvvəlcə Nizami Gəncəvinin abidəsi ziyarət olunub, önünə tər çiçəklər düzülüb.



Gəncənin Cavadxan küçəsi boyunca təşkil edilən mərasim Gəncə Dövlət Dram Teatrının təqdimatında "Xəmsə" adlı ədəbi-bədii kompozisiya ilə açılıb. Daha sonra "Ozan" qədim milli musiqi alətləri ansamblının, "Xəmsə" ritm qrupunun, "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının, "Gəncə qönçələri" və digər musiqi kollektivlərinin çıxışları olub.

Ümumşəhər tədbirində Gəncə uşaq rəssamlıq və incəsənət məktəbləri, habelə Uşaq-Gənclər İnkişaf Mərkəzi yetirmələrinin əl işlərindən ibarət sərgi nümayiş olunub. "Gəncə sənətkarları" bölməsində keramika üzərində rəsm, səbət toxuma, ağac üzərində oyma, misgərlik, dulusçuluq və digər qədim sənət növləri təqdim edilib.

Gəncə Dövlət Kukla Teatrının kollektivi də Nizami soraqlı tədbirə öz töhfəsini verib. Kollektiv Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından "Xeyir və Şər" nağılını təqdim edib. Bununla yanaşı, Gəncə idmançılarının şahmat, ağırlıqqaldırma, güləş və digər növlərdə çıxışları izlənilib. Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evinin, Samux rayon Sərkar kənd Uşaq musiqi məktəbinin kollektivlərinin də çıxışları olub.

Daha sonra Gəncə Dövlət Filarmoniyasının önündə konsert proqramı təqdim olunub. Gəncə Urban Mərkəzində isə "Gəncəsənət" və "GəncəKitab" sərgi-yarmarkası keçirilib.

Sonda "Gəncəsənət" incəsənət, sənətkarlıq və yaradıcılıq sərgi-yarmarkasının keçirilməsində dəstəyinə görə Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi, Gəncə Destinasiya Menecmenti Təşkilatı, KOBİA və Göygöl Milli Parkına layihə rəhbərləri tərəfindən təşəkkürnamələr təqdim olunub.

# Nizami Gəncəvi əsərlərinin el variantları

## Kitab Kürdəmir Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə nəşr olunub

VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Kürdəmir Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə nəşr olunan "Nizami Gəncəvi əsərlərinin el variantları" və filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızının "Ölümü ömür seçənlər" kitablarının təqdimatı keçirilib.

Əvvəlcə redaktoru və tərtibçisi şair Fərid Hüseyn olan "Nizami Gəncəvinin əsərlərinin el variantları" kitabı haqqında məlumat verilib. Nəşrin layihə rəhbəri və ön söz müəllifi – Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı bildirib ki, bu kitab Nizami Gəncəvinin süjetlərinin folklorumuza nə qədər sirayət etdiyini, eyni zamanda dahi ədibin Azərbaycanın el yaddaşından, xalq ədəbiyyatından nə qədər məharətlə yararlandığını bir daha aydınlaşdırır. Səbəb dövründə ayrı-ayrı nəşrlərdə yer alan bu əsərləri, folklor nümunələrini bir araya toplamaqla Nizaminin xalq yaddaşı, eləcə də xalqımızın Nizami yaddaşını yenidən təzələməyə çalışdıq".



Daha sonra N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Aran regional filialının müdiri Yaqut Bahadurqızının "Ölümü ömür seçənlər" kitabı haqqında söz açılıb. Bildirilib ki, kitab 44 günlük Vətən müharibəsində tarix yazan, torpaq uğrunda qəhrəmanlıqla döyüşərək canını fəda edən 39 nəfər kürdəmirli şəhidin həyat yoluna işıq salır.

# Bizi Qələbəyə aparanlar unudulmur

Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Lənkəran rayon komitəsinin sədri Anar Salayev Vətən müharibəsi şəhidi Sənan Ağazadənin məzarını ziyarət ediblər. Şəhidin ailəsi ilə söhbət zamanı qəhrəmanın döyüş yolundan, Vətəninə, xalqına məhəbbətindən danışılıb.



Sumqayıt Regional Mədəniyyət İdarəsi Zəngilan rayon nümayəndəliyinin kollektivi II Qarabağ müharibəsi şəhidi Emil Abdüləzimlinin ailəsi ilə görüşüblər. Qubadlı şəhər Ə.Mehdiyev adına Uşaq musiqi məktəbinin müəllimləri Vətən müharibəsi şəhidi, Azərbaycan Milli Konservatoriyasının məzunu, tarzən Toğrul Hacıyevin ailəsini ziyarət ediblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Beyləqan rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsinə həsr olunmuş "Yarımçıq qalmış arzular" adlı dəyirmi masa keçirilib. Tədbirdə şəhid ailələri və mərkəzin əməkdaşları iştirak ediblər.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Heydər Əliyev Mərkəzi, Zəngişalı kənd Mədəniyyət evi və MKS-nin 30 saylı kitabxana filialı işçilərinin təşkilatçılığı ilə Vətən müharibəsinin ildönümü münasibətilə "Qayıdan torpaqlarımızın qayıtmayan oğulları" adlı tədbir keçirilib.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Zəfər tariximiz" layihəsi çərçivəsində "Qəhrəmanlar unudulmur" mövzusunda tədbir keçirilib. Masallı rayon Mərkəzi Kitabxanasında isə Vətən müharibəsinin birinci ildönümü ilə bağlı tədbir təşkil olunub.

Ağstafa Regional Mədəniyyət İdarəsi Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidi Elmar Şirinovun ailəsini ziyarət ediblər. Rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə işğaldan azad olunmuş rayonlarımız haqqında hazırlanmış videoçarxlar nümayiş etdirilib. Mərkəzin əməkdaşları tərəfindən N.Tusi adına məktəb-liseyin VIII sinif şagirdləri üçün Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri və rayon haqqında açıq dərs keçirilib. Qazax rayon MKS-nin təşkilatçılığı və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon komitəsinin dəstəyi ilə şəhid ailəsi, qazi və müharibə iştirakçıları ilə görüş keçirilib. Qazax rayon Mədəniyyət Mərkəzində isə Vətən müharibəsi şəhidi Xaliddin Veyisliyə həsr olunmuş "Şəhidlər ölmür" adlı dəyirmi masa keçirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzində regional idarə tərəfindən elan edilmiş "Zəfər yazanlar" ədəbi yazı müsabiqəsinin qiymətləndirilmə mərhələsi ilə əlaqədar toplantı keçirilib. İdarənin rəisi Vüsal Hüseynov və şair, publisist Ramiz Qusarçaylı çıxış edərək bu kimi müsabiqələrin əhəmiyyətindən danışıblar.

Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Vətən müharibəsi qaziləri Bayram Vəliyev və Rüfət Paşayevlə görüş olub. Mərkəzdə həmçinin "Hadrut, qayıdışın mübarək!" adlı tədbir keçirilib. Göyçay Rayon Tarix-Diyarşünaslıq Muzeyində 5 saylı tam orta məktəbin 7-ci sinif şagirdlərinə "Ordumuzun şanlı Zəfəri" mövzusunda mühazirə oxunub. Göyçay rayon Rəsul Rzanın Ev-Muzeyində "44 günlük döyüş yolu" başlıqlı tədbir təşkil olunub. Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Uğrunda qan töküllmüş torpağa Vətən deyilir" adlı tədbir keçirilib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Arif Rüstəmovun doğum günü münasibətilə xatirə lövhəsinin açılışında iştirak ediblər.

İsmayıllı Rayon İcra Hakimiyyəti və İsmayıllı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə şəhərin mərkəzi meydanında Gəncə terrorunun birinci ildönümü münasibətilə bədii kompozisiya təqdim olunub.

Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov və aparat işçiləri Vətən müharibəsi zamanı Gəncədə törədilmiş erməni terroru qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq düşmən raketinin dağıtdığı ərazini ziyarət edib, tər qərənfillər düzüblər. F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbi Vətən müharibəsində şəhid olmuş məktəbin məzunu Mirhüseyn Seyidzadənin xatirəsinə həsr olunmuş anım günü keçirib. Samux rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Samux şəhər 3 saylı məktəbdə gənclərlə "Şəhid Vətən üçün həmişə yaşar" adlı söhbətlər aparıblar.



Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Heydər Əliyev Mərkəzi və Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə "Bizi Zəfərə aparanlar" adlı tədbir keçirilib. Tədbirdə Vətən müharibəsinin qaziləri ilə görüş təşkil olunub və məktəbin müəllimləri rəngarəng musiqi nömrələri ilə qazilərin qarşısında çıxış ediblər. Balakən rayon Heydər Əliyev Mərkəzində "Qarabağ Zəfəri və onun tarixi əhəmiyyəti" adlı maarifləndirici tədbir keçirilib. Tədbirdə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış balakənli qəhrəmanların əziz xatirəsinə həsr edilmiş videoçarx nümayiş olunub. Balakənin Talalar kənd Sənətkarlıq evində "Vətən tarixinə şanlı səhifələr yazmış qəhrəmanlar" başlığı altında diskussiya təşkil edilib. Balakən rayon Qaravəli kənd Diyarşünaslıq evində II Qarabağ müharibəsi iştirakçıları ilə "Zəfərə gedən yol" başlığı altında görüş keçirilib. Zaqatala rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsinin ildönümü münasibətilə dəyirmi masa təşkil edilib. Oğuz rayon MKS-nin Bayan kənd kitabxanasında "Şəhidlər ölməz, Vətən bölünməz!" başlıqlı şeir gecəsi keçirilib. Fəal oxucular Gülay Hacıyeva, Turan Nuruyev, Aliyə İsmayılova, Nərmin Hüseynzadə və Ayan Nuriyeva vətənsevərlik ruhlu şeirlər səsləndiriblər. Qax rayonu Güllük kənd Mədəniyyət evinin təşkilatçılığı ilə kənd orta məktəbində yeniyetmələr arasında vətənpərvərlik hissinin artırılması məqsədilə "Vətənimiz haqqında nələri bilirik" adlı anket-sorğu keçirilib. Sorğuda əsasən II Qarabağ müharibəsinə aid, şəhidlərimizin tanıdılması və müharibə zamanı baş verən önəmli hadisələri əhatə edən suallar üstünlük təşkil edib.

# Müxtəlif səpkili tədbirlər

Şəmkir Regional Mədəniyyət İdarəsi əhatə etdiyi Gədəbəy Aşıq Məktəbində Aşıq Ələsgərin 200 illik yubileyi ilə əlaqədar aşıq sənəti üzrə ixtisasartırma təlimi keçirilib. Tədbirdə regional idarənin rəisi Zöhrab Adıgözəlov və Gədəbəy Aşıq Məktəbinin direktoru Etibar Əliyev iştirak ediblər.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzində yanğın təhlükəsizliyinə dair maarifləndirici tədbir keçirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə Qazax şəhər S.Vurğun adına 2 saylı tam orta məktəbin IX sinif şagirdlərinin "Azərxalça" ASC-nin Qazax filialına ekskursiyası təşkil edilib. Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyində 7 oktyabr - Dünya Layiqli Əmək Gününə həsr olunmuş "Həyatımızın cövhəri - layiqli əmək" adlı tədbir keçirilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər T.Hacıyev adına 2 nömrəli Uşaq musiqi məktəbinin qarmon sinfinin V sinif şagirdi Ruhi Məmmədov bu ilin iyul ayında Qazaxıstan Respublikasında keçirilən "Tessa" musiqi müsabiqəsinin I turunda I yeri qazanıb. Məktəbin müəllimləri Yaşar Əhmədov və Nərgiz Məmmədova isə müsabiqənin fəxri fərmanına layiq görülüblər. Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov mükafatları sahiblərinə təqdim edərək onlara daha böyük uğurlar arzulayıb.

# "Qarabağa kitabla gedək"

## Aksiya çərçivəsində 55 mindən çox kitab toplanıb

VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində maraqlı təqdimatlardan biri də bu ilin əvvəlindən Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə həyata keçirdiyi "Qarabağa kitabla gedək" layihəsinə həsr olunmuşdu.

Sərginin sonuncu günündə (10 oktyabr) reallaşan tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan Ordusunun qazandığı böyük Qələbədən danışdı. Bildirdi ki, otuz ilə yaxın işğal altında qalmış rayonlarda ümumilikdə 975 kitabxana binası və 4.6 milyon nüsxədən artıq kitab fondları ermənilər tərəfindən talan və məhv edilib. Ali Baş Komandanın işğaldan azad olunan rayonlara səfərləri zamanı erməni talançılığının izlərini göstərərək dediyi "Biz bunların hamısını bərpa edəcəyik" çağırışına qoşulan Mədəniyyət Nazirliyi və Milli Kitabxana bu ərazilərdə bərpa ediləcək kitabxanalar üçün kitab toplama kampaniyasını həyata keçirir: "Bu layihəyə ilk qoşulan Xalq yazıçısı Elçin olmuşdur. O, şəxsi kitabxanasından ilkin olaraq 500-ə yaxın kitabı bu məqsədlə kitabxanaya təqdim etmişdir. Daha sonra layihəyə ziyalılar, yazıçı və şairlər, nəşriyyatlar və bir çox vətəndaşlar qoşuldu".

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli çıxış edərək sərgi iştirakçılarına göstərdikləri fəallığa görə təşəkkürünü bildirdi. Vurğuladı ki, "Qarabağa kitabla gedək" aksiyası çərçivəsində indiyədək 55 mindən çox kitab toplanılıb: "Bu gün biz Qarabağa həm mədəniyyətimizi, həm də ədəbiyyatımızı qaytarırıq. Bir daha bütün nəşriyyatlara, müəlliflərə üz tutaraq onları bu kampaniyada fəal iştiraka səsləyirəm. VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində "TEAS Press", "Parlaq imzalar", "İpək yolu", "Qədim Qala", "Mimika yayımları", "Renessans", "Köhlən", "Təhsil", "Altun kitab" və s. nəşriyyatlar bu layihəyə öz kitablarını təqdim ediblər.

"İpək yolu" nəşriyyatından Ramiz Məmmədov, Bakı Dövlət Universiteti Elmi Kitabxanasının əməkdaşı Nigar İsmayılova çıxış edərək belə gözəl ideya üçün Mədəniyyət Nazirliyinə və




Milli Kitabxanaya təşəkkürlərini bildirdilər. Vurğulandı ki, kitab bir işıqdır, mədəniyyətdir. Mədəniyyətimizi Qarabağa geri qaytarmaq hamımızın borcudur. BDU layihəyə ilkin olaraq 1000-ə yaxın ədəbiyyat bağışlayıb.

Tədbirin sonunda Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli Azərbaycan Milli Kitabxanasına sərgidə "ən yaxşı ekspozisiya" nominasiyası üzrə xüsusi sertifikat təqdim etdi.

**L.AZƏRİ**




# "Bəhram Gur və Dürsəti"

## Kitab sərgisində xalça təqdimatı da oldu

Nizami Gəncəvinin 880 illiyinə həsr edilən VII Bakı Beynəlxalq Kitab Sərgisi yalnız kitab, kitabxana və nəşriyyat işi ilə bağlı təqdimatlarla yadda qalmadı. Oktyabrın 9-da sərgi çərçivəsində Bakı Expo Mərkəzində Əməkdar rəssam Taryer Başirovun müəllifi olduğu "Bəhram Gur və Dürsəti" xalçasının təqdimatı keçirildi.

Azərbaycan Milli Xalça Muzeyinin baş rəssamı Taryer Başirov tədbir iştirakçılarını salamlayaraq xalça haqqında ətraflı məlumat verdi. Bildirdi ki, xalça dahi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasına həsr olunub. Xalça əsərin müxtəlif süjetləri əsasında qurulub. Ara sahənin mərkəzində tağlı otaqda Bəhram Gur və yeddinci sarayın gözəli Dürsəti təsvir edilib. Sarayın ətrafında isə Dürsəti tərəfindən nəql edilən hekayədən fraqmentlər verilib.

Rəssam dedi ki, xalçanın daha bir maraqlı məqamı Bəhram Gur və Dürsətinin əyləşdiyi saray otağının divarında muzeyin zərgərlik kolleksiyasına daxil olan "Dürsəti" adlanan sırğanın təsvirinin verilməsidir: "Adətən bu poemaya aid ədəbi süjetlərdən fərqli olaraq gözəllərin danışdığı hekayələr təsviri sənətdə az işlənilib. Mən həmin hekayətdən əsas mövzunu açan fraqmentləri xalçanın kompozisiyasına daxil etmişəm. Xalçanın haşiyə zolağı da nəbati elementlərlə işlənərək zəngin ornamental tərtibata malikdir".

Daha sonra tədbir iştirakçılarının sualları cavablandırıldı.

Qeyd edək ki, "Nizami Gəncəvi İli" ilə əlaqədar muzeyin Ənənəvi texnologiya şöbəsində ərsəyə gələn "Bəhram Gur və Dürsəti" xalçasının toxucuları Əminə Əliyeva və Təranə Qasımovadır.

**N.MƏMMƏDLİ**

# Milli Kitabxanada Bolqarıstana və Gürcüstana dair daimi guşələr açılıb

Xəbər verildiyi kimi, Milli Kitabxana VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində müxtəlif tədqimatlar keçirib.



Oktyabrın 8-də Milli Kitabxananın Beynəlxalq əməkdaşlıq zalında sərginin qonaqları – Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan Milli Kitabxanası və Gürcüstan Milli Parlament Kitabxanası rəhbərlərinin iştirakı ilə bu ölkələrə dair daimi guşələrin açılışı olub.

Mərasimdə Azərbaycan Milli Kitabxanasının dəvəti ilə sərgiyə gələn Rusiya, Qırğızıstan və Özbəkistan nümayəndə heyətləri də iştirak ediblər. Qonaqlar öncə kitabxana ilə tanış olublar.

Milli Kitabxananın direktoru Kərim Tahirov diqqətə çatdırıb ki, Beynəlxalq əməkdaşlıq zalında 14 ölkənin ədəbiyyatına dair yaradılmış daimi guşə var. Zaldakı kompüterlər vasitəsilə artıq Bolqarıstan və Gürcüstan kitabxanalarının elektron kataloquna da birbaşa daxil olmaq mümkündür.

Bolqarıstanın Azərbaycandakı səfiri Nikolay Yankov çıxış edərək Azərbaycan Milli Kitabxanasında ölkəsinə aid guşənin yaradılmasından şad olduğunu bildirib. Qeyd edib ki, bu, gələcək mədəni əlaqələrin inkişafı üçün yaxşı zəmindir.

Gürcüstanın Azərbaycandakı səfirinin müavini Revaz Sakvarelidze bildirib ki, iki ölkə arasında əlaqələrin tarixi çox zəngindir. Çox sevindirici haldır ki, bu gün bu əlaqələrin bir göstəricisi kimi Azərbaycan Milli Kitabxanasında Gürcüstana dair daimi guşə açılır.

Bolqarıstan Milli Kitabxanasının direktoru Krasimira Aleksandrova və Gürcüstan Milli Parlament Kitabxanasının Kitabxana resursları şöbəsinin müdiri Levan Taktakishvili guşələrin yaradılmasına görə Azərbaycan Milli Kitabxanasının rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Kərim Tahirov onu da diqqətə çatdırıb ki, bir neçə gün sonra Bolqarıstan Milli Kitabxanasında Azərbaycan guşəsinin açılışı olacaq, eyni zamanda Bolqarıstan Milli Kitabxanası ilə Azərbaycan Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanacaq.

Qonaqlara "Azərbaycan Milli Kitabxanası: fotoalbom", "Salam, Azərbaycan!" kitabları və digər hədiyyələr təqdim olunub.

# "Dəmir yumruq" dastanı"

## "Ömür imkan versə, bu dastanın yeni qəhrəmanlıq səhifələri yazılacaq"

Bakı Ekspo Mərkəzində tanınmış uşaq yazıçısı, ədəbiyyatşünas alim, professor Zahid Xəlilin "Dəmir yumruq" dastanı" kitabının təqdimatı keçirildi.

VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 9-da reallaşan təqdimatda çıxış edən müəllif kitab haqqında məlumat verdi. Qeyd etdi ki, kitabda Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşü bədii-publisistik üslubda təqdim olunur: "Əslində, bu kitabın müəllifi Ali Baş Komandanın rəhbərliyi ilə cəbhələrdə igidlik göstərən, Vətən sevgisini öz həyatından üstün tutan qəhrəman döyüşçülərimizdir. İlham Əliyevin uzaqgörən siyasəti, qorxmaz komandanlığı altında Ordumuz 44 günə böyük bir tarix yazdı. Bu elə bir Qələbədir ki, dünyanın hərbi




tarixçiləri uzun illər onun sirlərini araşdıracaqlar. Dövlət başçısının dərin zəkası, uzaqgörən siyasəti, mərdliyi işğal altındakı torpaqlarımızı azad etməklə yanaşı, bizi daha cəsur, daha istiqanlı, daha müdrik millətə çevirdi və Azərbaycan xalqı müharibənin ağırlığını dəyanətlə ürəklərdə əritdi. Mən də bu şücaəti Qoca şairin dili ilə tərənnüm etdim.

Müəllif qeyd etdi ki, ömür imkan versə, bu dastanın yeni qəhrəmanlıq səhifələri yazılacaq: "Çünki hələ bu kitabın son nöqtəsini qoymağa macal tapmamış Prezidentimizin gələcəyə ünvanlanan fəaliyyətləri ümidimi daha da artırır".

Daha sonra çıxış edən nəşrin illüstratoru Nuranə Tahirova kitaba çəkilən rəsmlər haqqında danışdı. Bildirdi ki, Vətən müharibəsinin hər bir günü illüstrasiyalar vasitəsilə kitabda göstərilib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırıldı.

**NURƏDDİN**

# "İgid ömrü"

## Şəhid Milli Qəhrəman Füzuli Rüstəmov haqqında kitabın təqdimatı keçirildi

İgid ölər, adı qalar... Xalqımız bu fikri söz xatirinə deməyib. Çünki zaman-zaman belə misala nümunə olan oğullar yetirib, onların əsrlərə yaddaş olan ömür yollarına, şücaət və əzmkarlıqlarına nəğmələr qoşub.

Bakı Beynəlxalq Kitab Sərgisindəki təqdimatlardan biri də Milli Qəhrəman, Birinci Qarabağ müharibəsi şəhidi, Xocalı qətliamının şahidi Füzuli Rüstəmov (1965-1992) haqqında "İgid ömrü" kitabına həsr olunmuşdu.

Bu təqdimat Xocalı sakinlərinin Zamin kimi çağırdığı, inanıb etibar etdiyi qəhrəman şəhidimizə sevgi və ehtiramının nümayiş meydanı idi.

Kövrək notlu mərasimi açan layihə rəhbəri, Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova kitabın ərsəyə gəlməsindən bəhs etdi. Bildirdi ki, jurnalist-publisist Nəzirməmməd Zöhrablının qələmə aldığı bu sənədli povesti Respublika Xatirə Kitabı Redaksiyasının "Şəhidlər ölməz, Vətən bölünməz!" layihəsinin növbəti nəşridir.

Qeyd olundu ki, povestdə qəhrəmanın həyat və döyüş yolundan, eyni zamanda bələdçi olaraq 26 fevral – Xocalı soyqırımı gecəsi çoxlu sayda sakini düşmən caynağından xilas edərək Ağdamın Şelli kəndinə gətirib çıxarmasından söz açılır. Füzuli sakinləri çıxarmaq üçün dördüncü dəfə qayıdarkən düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb.

N.Məmmədova kitabın ərsəyə gəlməsindən danışarkən bir xatirəsini də tədbir iştirakçıları ilə bölüşdü: "Tədbirlərdən birində təsadüf nəticəsində Füzuli Rüstəmovun bacısı Fiqurə Rüstəmova ilə tanış oldum. O mənə dedi ki, "hamı haqqında yazılır, amma mənim qardaşım yada düşmür, o, qeyri-adi qəhrəman idi. Ona "Milli Qəhrəman" adı verilməsini xocalılılar tələb edib. Qardaşım xalqın qəhrəmanı idi". Qəhər məni boğdu və elə oradaca şəhid bacısına kitab vədi verdim. Sevinirəm ki, bu gün məhz həmin kitabın təqdimatındayıq. Üç bölüm və 255 səhifədən ibarət bu kitabı oxuyanda siz də Füzulinin keçdiyi qəhrəmanlıq yolu ilə tanış olacaqsınız. Əslində, Füzuli Xocalıdan öz ailəsini də, qonşularını da çıxarmışdı və geri qayıtmaya da bilərdi. Amma onun təəssübü buna imkan vermədi və o, daha çox insanı çıxarmaq üçün yenə geri qayıtdı, yenə Xocalı sakinlərinin zamini olmaq üçün həyatını təhlükəyə atdı. Biz bu kitabda Xocalı barədə həqiqətlərin də bir qismini, şəhərin müdafiəsi ilə bağlı faktları da oxucuların diqqətinə çatdırmağa çalışmışıq".

Müəllif Nəzirməmməd Zöhrablı çıxış edərək kitaba çevirdiyi qəhrəmanının ömür yolundan, onun igidliyi haqqında eşitdiklərindən söz açdı: "Şəhidimiz heç bir mübaliğəyə ehtiyacı olmayan qəhrəmandır. Xocalı camaatının



illər sonra da sayğı ilə xatırlayacağı bu igid haqqında əsər yazmaq, onun ömür yoluna nəzər sala bilmək mənim müəllif kimi səadətim, ən böyük qazancımdır. Həyatda igidliyi ilə iz qoyan, gənc ömrünü Vətəninin azadlığına qurban verən Füzuli kimi oğullar var olduqca, bu Vətən basılmayacaq".

Uşaqlıqdan hər iki valideynini itirən və xalasının himayəsində böyüyən, onu anası bilən Füzulinin bacısı Fiqurə Rüstəmovanın çıxışı təqdimata toplaşanları göz yaşlarına boğdu. Nəzərlərini bir nöqtəyə zilləyərək danışdıqca, göz yaşlarını silə-silə titrək səsində qardaşını xatırladıqca ətrafdakılar da bu zərif çiynində illərdir qardaş dərdi yükünü daşıyan qadının ətrafında çoxalırdılar. Ətrafdakılar da göz yaşlarının müşayiətində gah ona, gah da monitordakı 26 yaşında qalan Füzulinin rəsminə baxırdılar.

Şəhid bacısı "İşıqlı dünyada qəhrəman adından başqa heç bir nişanəsi qalmayan, toyu çalınmayan qardaşımı xatırladan, onun yeganə yadigarına, mənim tək təsəllimə çevrilən "İgid ömrü"nə görə hər birinizə təşəkkür edirəm" deyib kitabı bağrına basdı: "Kitablaşan, dastanlaşan qəhrəman qardaşımın ətrini artıq bu kitabdan alaram, 26 illik ömür yaşayan qardaşımı bu kitabla əzizləyər, bu kitabla oxşayaram... Qardaşımın iki adı vardı. Xocalılılar ona Zamin deyirdilər, sənəddə isə adı Füzuli idi. Biz çox kiçik yaşlarımızda valideynlərimizi itirmişik, ana nənə-babamız öz himayəsinə götürüb. Xalamız Səkinə bizə analıq edib (bu sözləri deyib əlini tədbir iştirakçıları arasında oturub səssiz-səmirsiz göz yaşları axıdan ağsaçlı qadına uzatdı). Qardaşım orta məktəbi bitirdikdən sonra Xocalıda sovxozda işləyib, sonra Sovet ordusunda xidmət edib qayıdıb. 1988-ci ildə ermənilər "Dağlıq Qarabağ" məsələsini qaldırmağa, separatçı çağırışlar etməyə başlayanda hamı kimi qardaşım da səssiz qalmadı, ayağa qalxdı, etiraz elədi. O zaman silah yox idi, camaat balta, yaba, bel götürüb ermənilərə müqavimət göstərirdi. Bu müddətdə qardaşım dəfələrlə döyüldü, həbs edildi, yaralandı. Amma etirazından, mübarizəsindən əl çəkmədi. O, daim Vətəninin keşiyində durdu".

**Həmidə NİZAMİQIZI**

# "Nizami söhbətləri" təqdim edildi

Bakı Ekspo Mərkəzində beynəlxalq kitab bayramı çərçivəsində Azərbaycan Yazıçılar Birliyi (AYB) Gənclər Şurasının sədri, şair Fərid Hüseynin "Nizami söhbətləri" kitabının təqdimatı oldu.

Fərid Hüseyn bildirdi ki, "Azərbaycan" jurnalının layihəsi kimi işıq üzü görən kitabda nizamişünas alimlər, şərqşünaslar, eləcə də Nizami Gəncəvi yaradıcılığına bələd olan söz və fikir adamları ilə müsahibələr yer alıb. Sabir Rüstəmxanlı, İlqar Fəhmi, Məsiağa Məhəmmədi, Seyfəddin Rzasoy, Firudin Qurbansoy, Səadət Şıxıyeva, Zəhra Allahverdiyeva, Nəzakət Məmmədli, Əsəd Cahangir, Sərxan Xavəri və Əlimuxtar Muxtarovla söhbətlərdə dahi şairin əsərlərinin müxtəlif istiqamətləri, məqamları təhlil olunur. Nəşrdəki müsahibələrin əksəriyyəti "Azərbaycan" jurnalında "Nizami söhbətləri" adlı rubrikada dərc edilib.

Nəşrin ön söz müəllifi və redaktoru, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə qeyd etdi ki, nizamişünaslıq ədəbiyyatşünaslıq elminin həmişə xüsusi önəm verilən sahələrindən olub. Azərbaycan alimləri, yazıçıları, sənətşünaslar daim Nizami yaradıcılığına müraciət edib, ondan bəhrələnib: "Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunduqdan sonra nizamişünaslıqda yeni bir canlanma baş verdi, çoxlu sayda yeni məqalə yazıldı. Nizami yaradıcılığı elə bir dəryadır ki, ora baş vuran əliboş qalmır. Bu mənada "Nizami söhbətləri" kitabı tədqiqatçılar qarşısında yeni üfüqlər açacaq".

**LALƏ**

# ARKİ-nin Rasim Ocaqov adına təqaüdü təyin olunub

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı (ARKİ) görkəmli kinorejissor, Xalq artisti, SSRİ və Azərbaycanın Dövlət mükafatları laureatı Rasim Ocaqovun (1933-2006) adına təsis etdiyi xüsusi təqaüdü yeni tədris ili üçün təqdim edib. ARKİ-dən verilən məlumata görə, təqaüd Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kino və televiziya fakültəsində operator sənəti ixtisası üzrə ödənişli təhsil alan 4-cü kurs tələbəsi Mirzə Hüseynova təyin olunub.

Kinorejissorun adına olan təqaüd M.Hüseynova ittifaqın İdarə heyətinin qərarı ilə təhsildə və ictimai işlərdə fərqləndiyinə, müxtəlif tədbirlərdə uğur qazandığına, eyni zamanda ailəsinin sosial vəziyyətinin qənaətbəxş olmadığına görə verilib.

Qeyd edək ki, ARKİ tərəfindən 2019-cu ildə Rasim Ocaqov adına medal da təsis olunub.

№77 (1854)
13 oktyabr 2021
www.medeniyyet.az

## Xalq artisti Ağakişi Kazımov vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Xalq artisti, tanınmış teatr rejissoru Ağakişi Kazımov oktyabrın 8-də, 85 yaşında vəfat edib.

Ağakişi Şəmməd oğlu Kazımov 1935-ci il iyunun 28-də Ağcabədi rayonunda dünyaya göz açıb. 1952-1957-ci illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsində təhsil alıb. Tələbə ikən Akademik Milli Dram Teatrında aktyor kimi fəaliyyətə başlayıb, müxtəlif tamaşalarda yaddaqalan obrazlar yaradıb.



1960-cı ildə Quba Dövlət Dram Teatrına baş rejissor təyin olunub. Bir müddət sonra yenidən Akademik Milli Dram Teatrına dəvət olunur, həm aktyor, həm də bəzi tamaşalarda rejissor assistenti kimi fəaliyyət göstərir.

1964-cü ildə Sankt-Peterburq Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun Rejissorluq fakültəsinə daxil olan Ağakişi Kazımov 1969-cu ildə təhsilini başa vuraraq respublikaya qayıdıb. Həmin il Mədəniyyət Nazirliyi tərəfindən yeni fəaliyyətə başlayan Sumqayıt Dövlət Dram Teatrına direktor göndərilib. 1971-1973-cü illərdə isə bu teatrda baş rejissor vəzifəsində çalışıb.

Ağakişi Kazımov sonrakı illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (1974-1975), Dövlət Gənc Tamaşaçılar Teatrında (1975-1983 və 1990-2002) baş rejissor, Azərbaycan Dövlət Opera və Balet Teatrında (1973-1974), eləcə də müxtəlif vaxtlarda Akademik Milli Dram Teatrında quruluşçu rejissor işləyib. Aktyor kimi kinoya da çəkilib. "Yük" bədii filmində (1995) Hacı Zeynalabdin Tağıyev rolunu oynayıb.

Sənətkar 1977-ci ildən indiki Mədəniyyət və İncəsənət Universitetində dərs deyib, 2001-ci ildən universitetin professoru olub.

Ağakişi Kazımov Azərbaycan teatr sənətində xidmətlərinə görə 1987-ci ildə respublikanın "Əməkdar incəsənət xadimi", 2000-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

Ağakişi Kazımovun əziz xatirəsi sənət dostlarının, yetirmələrinin, onu tanıyanların qəlbində əbədi yaşayacaq.

***



Ağakişi Kazımov oktyabrın 9-da Bakı şəhərindəki aşağı "Qurd qapısı" qəbiristanlığında (ümumşəhər qəbiristanlığı) torpağa tapşırılıb. Sənətkarın məzarı önünə Mədəniyyət Nazirliyi və Akademik Milli Dram Teatrı adından əklillər qoyulub.

Allah rəhmət eləsin.

## Tanınmış heykəltəraş Namiq Dadaşov dünyasını dəyişib



Əməkdar rəssam, tanınmış heykəltəraş, Azərbaycan Rəssamlar İttifaqının üzvü Namiq Dadaşov oktyabrın 7-də, 76 yaşında vəfat edib.

Namiq Əbdülxalıq oğlu Dadaşov 27 noyabr 1945-ci ildə Bakıda anadan olub. İlk sənət təhsilini Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində alıb, daha sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunu heykəltəraşlıq ixtisası üzrə bitirib.

Namiq Dadaşov bir çox görkəmli şəxsiyyətlərin heykəl, büst və barelyeflərinin müəllifidir. Vaxtilə Şuşada qoyulan Qasım bəy Zakirin qəbirüstü abidəsi (1983), Üzeyir Hacıbəylinin və Bülbülün büstləri (1984) – Şuşa şəhərinin işğalından sonra vandalizmə məruz qalan və Şuşanın azad olunmasından sonra əvvəlki məkana qaytarılan "güllələnmiş heykəllər"dən ikisi, Bülbülün Milli Kitabxanada qoyulan heykəli (1991), akademik Əbdüləzəl Dəmirçizadəyə həsr olunmuş memorial lövhə (1994, Bakı), general Ə.Şıxlinskinin büstü (1996, Bakı), kinorejissor Əjdər İbrahimovun memorial lövhəsi (1999, Moskva), bəstəkar Fikrət Əmirovun 2011-ci ildə paytaxtda ucaldılan abidəsi və s. onun əl işləridir. Namiq Dadaşov, həmçinin ulu öndər Heydər Əliyevin Neft Daşlarında qoyulmuş büstünün, müxtəlif xatirə sikkələrinin müəllifi olub.

2002-ci ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adına layiq görülüb.

Heykəltəraşın əsərləri Hollandiya, İngiltərə, Türkiyə, Gürcüstan, Almaniya, Fransa və başqa ölkələrdə nümayiş etdirilib.

Allah rəhmət eləsin.

## Misirdə görkəmli şərqşünas Aida İmanquliyevaya həsr olunmuş kitab çapdan çıxıb

Misirdə Azərbaycan şərqşünaslıq elminin görkəmli nümayəndəsi, filologiya elmləri doktoru, professor Aida İmanquliyeva haqqında kitab çapdan çıxıb. "Məhcər ədəbiyyatında şərqşünasların əsərləri sırasında Aida İmanquliyeva nümunəsi" adlı kitabın müəllifi misirli alim, professor Raşa Ğanimdir.

Azərbaycanın Misirdəki Səfirliyinin dəstəyi ilə ərəb dilində nəfis şəkildə çap olunmuş kitab müqəddimə və üç fəsildən ibarətdir.

Görkəmli şərqşünas alimin "Yeni ərəb ədəbiyyatı korifeyləri" fundamental monoqrafiyasının təhlilini aparan müəllif qeyd edib ki, Aida İmanquliyeva ən yüksək peşəkarlıqla ərəb ədəbiyyatında modernləşmə cərəyanını araşdırıb, məhcər (köç) ədəbiyyatı nümunələrini dərinliyi ilə tədqiq edib, ərəb ədiblərinin yaradıcılığında liberal meyilləri və ənənəvi yaradıcılıq üslubuna xas olan əsərlərin xüsusiyyətlərini araşdırıb.

Kitabda qeyd olunub ki, Aida İmanquliyeva 70-dən çox elmi məqalənin müəllifi, Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. O, Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib. Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının




tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan görkəmli alim uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub. Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Aida İmanquliyevaya həsr olunmuş kitabın işıq üzü görməsi Misir mətbuatının da diqqət mərkəzində olub. "Cümhuriyyə", "Əl Vəsilə", "Dar Əl Marif" qəzetləri, "Əl Diplomasi", "Yeni dünya xəbərləri" informasiya portalları, "Diplomasy magazine" jurnalı, "Asiaelyom" agentliyinin saytında və digər KİV-də bu barədə materiallar yayımlanıb.

## Milli Konservatoriyada şəhid tarzən Toğrul Hacıyevin xatirəsi anılıb

Oktyabrın 8-də Azərbaycan Milli Konservatoriyasında (AMK) bu təhsil ocağının tələbəsi olmuş şəhid Toğrul Hacıyevin anım tədbiri keçirilib.

AMK-nın rektoru, Xalq artisti Siyavuş Kərimi çıxış edərək Toğrul Hacıyevin döyüş yolundan söz açıb, onun konservatoriyada nümunəvi tələbə olduğunu diqqətə çatdırıb.

Qeyd edib ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tariximizin şanlı salnaməsini yazdı. Qəhrəman Vətən övladlarının şücaəti sayəsində, canı-qanı bahasına Vətən torpaqları işğaldan azad edildi. "Heç bir müharibə qurbansız olmur. Bu müharibədə bizim müəllim və tələbələrimiz də iştirak etdi. Tələbəmiz Toğrul Hacıyev şəhid oldu. O, hamıya nümunə olacaq bir insan idi. Torpağı müdafiə edirsənsə, deməli, Vətən var. Toğrul da bunu sübut etdi. Mən onun yaxınlarına, valideynlərinə Allahdan səbir diləyirəm. Toğrul və onun simasında bütün şəhidlərimiz daim qəlbimizdə yaşayacaq", – deyə Siyavuş Kərimi bildirib.



Rektor əlavə edib ki, Toğrul Hacıyev dövlətimizin başçısının müvafiq sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhidin müəllimləri – Xalq artisti Elçin Həşimov və Əməkdar artist Səbuhi Cəfərov çıxış edərək Toğrul Hacıyevlə bağlı xatirələrini bölüşüblər.

Şəhidin anası İlhamə Soltanova tədbirin iştirakçılarına və təşkilatçılarına təşəkkür edib.

Tədbir şəhidin vaxtilə ifa etdiyi muğam nömrələrinin səsləndirilməsi ilə davam edib.

Qeyd edək ki, əslən Füzuli rayonundan olan Toğrul Hacıyev 1996-cı il dekabrın 24-də Bakıda anadan olub. 2016-2019-cu illərdə Azərbaycan Milli Konservatoriyasında tar ixtisası üzrə təhsil alıb, sonra magistraturada təhsilini davam etdirib. Füzuli şəhər 3 nömrəli Uşaq musiqi məktəbində tar müəllimi işləyib.

Ata yurdunun və bütövlükdə Qarabağ elinin yağı işğalından azad olunması Toğrulun da arzusu olub. Bu arzu ilə də Vətən müharibəsinə yollanıb. O, 2020-ci il oktyabrın 10-da atababalarının doğulduğu Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

## "Aşıq Ələsgər və Azərbaycan folkloru"

### Yaradıcılıq müsabiqəsi

Aşıq Ələsgərin 200 illik yubileyi ilə bağlı tədbirlər çərçivəsində paytaxtın ümumtəhsil məktəblərinin VII-X sinif şagirdləri arasında "Aşıq Ələsgər və Azərbaycan folkloru" mövzusunda yaradıcılıq müsabiqəsi keçirilir.




Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib ki, müsabiqənin məqsədi şagirdləri ustad sənətkarın həyat və yaradıcılığı, Azərbaycan folkloru və xalq ədəbiyyatının mühüm hissəsi olan aşıq sənəti ilə tanış etmək, onların bədii-estetik zövqünü formalaşdırmaq və yaradıcılıq səviyyələrini yüksəldilməsinə dəstək verməkdir.

Müsabiqə "Şeir", "Mahnı" və "Yaradıcı iş" olmaqla 3 nominasiya üzrə keçirilir.

Müsabiqənin noyabrın 1-dək davam edəcək məktəb mərhələsində nominasiyalar üzrə seçilən şagirdlər barədə məlumat ils.layiheler@baku.edu.gov.az elektron ünvanına göndərilməlidir. Noyabrın 2-dən 25-dək keçiriləcək müsabiqənin II (şəhər) mərhələsində münsiflər heyəti tərəfindən qaliblər müəyyənləşdiriləcək.

"Şeir" və "Mahnı" nominasiyaları üzrə qiymətləndirmə zamanı ifaçının səhnə mədəniyyəti, təqdimetmə və vaxtın düzgün idarə olunması bacarıqları (3-5 dəqiqə), nitqin aydınlığı, səlisliyi və ifadəliliyi, "Yaradıcı iş" nominasiyası üzrə isə işin mövzuya uyğunluğu, maraqlı ideya, fikri sərbəst ifadə etmək bacarığı, bədii təfəkkür, obrazlı düşüncə və ifadə tərzi, düzgün kompozisiya və ideyanın orijinallığı əsas meyarlar kimi götürüləcək.

Müsabiqənin final mərhələsində hər nominasiya üzrə 1 nəfər I, 1 nəfər II, 1 nəfər isə III yer olmaqla, ümumilikdə 9 şagird qalib kimi müəyyənləşdiriləcək. Həmçinin nominasiyalar üzrə həvəsləndirici mükafat və fəal iştiraka görə təşəkkürnamə təqdim olunacaq.

## "Qələbə hünəri" respublika yaradıcılıq sərgisinə qeydiyyat yekunlaşıb

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək "Qələbə hünəri" adlı respublika yaradıcılıq sərgisinə qeydiyyat yekunlaşıb.

Vətən müharibəsində Zəfərin ildönümünə həsr olunmuş sərgi noyabrın 6-da Xətai Sənət Mərkəzində açılacaq.

Dövlət Rəsm Qalereyasından bildirilib ki, sərginin məqsədi Azərbaycan, xüsusən də işğaldan azad olunmuş ərazilərimizi tərənnüm etmək, Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığının və qazanılmış tarixi qalibiyyəti təsviri sənət nümunələri vasitəsilə nümayiş etdirməkdir.

Sərgidə ümumilikdə 100 əsər təqdim olunacaq. Əsərlər təşkilat komitəsinin formalaşdırdığı münsiflər heyəti tərəfindən seçilir. Sərgidə iştirak edəcək rəssamların siyahısı oktyabrın 15-də Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin rəsmi saytı və sosial media hesablarında paylaşılacaq.

Seçilmiş əsərlər oktyabrın 30-dək Xətai Sənət Mərkəzinin 3-cü mərtəbəsindəki sərgi zalına təhvil verilməlidir. Nümayiş olunan əsərlərin müəllifləri sertifikatla təltif ediləcəklər.

## Əsryarımlıq tarixi olan məktəbin yeni təməli

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbi zəngin tarixə malik təhsil müəssisəsidir. 1993-cü il avqustun 23-də Cəbrayıl rayonu işğal ediləndə mən həmin məktəbin 10-cu sinfini bitirmişdim. 2013-cü ildən isə bu təhsil müəssisəsinin rəhbəriyəm. 2020-ci il oktyabrın 4-ü işğal tarixini bizə unutdurdu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı Ordumuzun şücaəti və xalqımızın həmrəyliyi ilə 44 günlük Vətən müharibəsi Zəfərlə başa çatdı, torpaqlarımız düşmən işğalından azad edildi.

Bu fikirləri Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin direktoru Şəlalə Qasımlı bildirib. O vurğulayıb ki, oktyabrın 4-də rayonumuzun işğaldan azad edilməsinin birinci ildönümündə Prezident İlham Əliyevin Cəbrayıla səfəri tarixi hadisə oldu.

"Çox xoşbəxtəm ki, akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbinin rəhbəri olaraq təhsil ocağının təməlqoyma mərasimində mən də iştirak etdim. Bu təhsil ocağı Azərbaycanda açılan ilk üç məktəbdən biri olub", - deyə Ş.Qasımlı qeyd edib.

Məktəbin tarixi haqqında məlumat verən direktor deyib: "1876-cı il avqustun 5-də Qafqaz tədris idarəsinin baş idarəyə göndərdiyi məktubda Cəbrayıl qəzasının Cəbrayıl kəndində məktəbin açılması xahiş olunurdu. Dairə idarəsinin rəisi bunu ərazidə işləyən məmurların uşaqlarının təhsildən kənarda qalması ilə əsaslandırırdı. Məktubda o da göstərilmişdi ki, kənd icmaları məktəb üçün lazımi bina və müəllimlər üçün yaşayış evi tikməyi öz öhdələrinə götürürlər. Bu istək reallaşdı. 1876-cı ildə Cəbrayıl qəzasının Cəbrayıl kəndində birsinifli rus məktəbi fəaliyyətə başladı. Məktəb əvvəlcə yararsız, darısqal və rütubətli bir binada yerləşirdi. Bir çox çatışmazlıqlara baxmayaraq, Cəbrayılda yeni tipli həmin məktəb qəza ərazisində yeganə maarif, mədəniyyət ocağı sayılırdı. 1920-ci ilədək fəaliyyət göstərən məktəbin bazası əsasında dördsinifli məktəb yaradıldı və 1925-ci ildə beşsinifli məktəbə çevrildi. 1935-1936-cı dərs ilində Cəbrayıl beşsinifli ibtidai və kəndli-gənclər məktəblərinin bazasında orta məktəb təşkil olundu. 1939-cu ildə yeni məktəb binası istifadəyə verildi. 1944-cü ildə Cəbrayıl qəsəbə orta məktəbinə rus yazıçısı Maksim Qorkinin adı verildi. 1963-cü ildə yeni səkkizillik məktəb təşkil edildi".

Şəlalə Qasımlı diqqətə çatdırıb ki, Cəbrayıl şəhər orta məktəbi sovet dövründə respublika üzrə qabaqcıl məktəblərdən biri hesab olunurdu. 1976-cı ildə Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin diqqət və qayğısı sayəsində məktəbin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Akademik Mehdi Mehdizadə ötən əsrin 40-cı illərinin sonlarında məktəbdə nümunə dərsləri demişdi və 1989-cu ildən məktəbə onun adı verilib. Cəbrayıl rayonu ermənilər tərəfindən işğal olunduqdan sonra məktəb Bakı şəhərinə köçürülüb, 1994-2013-cü illərdə fəaliyyətini Azərbaycan Texniki Universitetinin Hərbi kafedrasında davam etdirib. Hazırda məktəbimiz Qaradağ rayonunun Müşfiqabad qəsəbəsindəki məcburi köçkün şəhərciyində yerləşir".

Direktor qeyd edib ki, Birinci Qarabağ müharibəsində akademik Mehdi Mehdizadə adına məktəbin məzunları Çingiz Qasımov, Fuad Əsədov, Kazım Məmişov, Nurəddin Fətullayev, Ramiz Ağayev, Elmar Əliyev, Taleh İsmayılov, İlqar Mehdiyev, Vüqar Hüseynov, Rəşid Əliyev qəhrəmancasına şəhid



olublar: "28 illik ayrılıqdan sonra yenidən Cəbrayıla qovuşduq. Cəbrayıllılara bu xoş günləri yaşadan Müzəffər Ali Baş Komandana və şanlı Ordumuza öz dərin minnətdarlığımı bildirirəm. Məktəbimiz fəaliyyətini tezliklə doğma torpaqda davam etdirəcək. O günü səbirsizliklə gözləyirik".

# “Nizami və tarix” kitabının imza günü

VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimlinin “Nizami və tarix” kitabının təqdimatı və imza günü keçirilib.

Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə yenidən işlənərək nəşr olunmuş kitabın təqdimat mərasimində ədəbiyyatşünaslar, ali məktəb tələbələri, müxtəlif kitabxana və nəşriyyatların əməkdaşları iştirak edib, kitab haqqında fikirlərini bildiriblər.




Teymur Kərimli kitabı haqqında məlumat verib, monoqrafiyada Nizami Gəncəvi yaradıcılığında tarixi şəxsiyyət və hadisə probleminin müxtəlif rakurslardan nəzərdən keçirildiyini, “Xəmsə”də tarixi şəxsiyyət və mühit, eləcə də hökmdar surətlərinin tarixi təkamülü, həmçinin “Xəmsə”nin tarixi poetikası məsələlərinə aydınlıq gətirildiyini qeyd edib.

Sonra oxucuların marağına səbəb olan kitabın imza mərasimi keçirilib.

Kitabın elmi redaktoru AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, redaksiya-nəşriyyat heyətinin üzvləri filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfzadə, tarix üzrə fəlsəfə doktoru, dosent Cavid Cəfərov və filologiya üzrə fəlsəfə doktoru Aytən Quliyevadır.

# “Nizami Gəncəvi” biblioqrafiyasının və “Sözləri Nizaminindir” CD-albomun təqdimatı keçirilib



VII Bakı Beynəlxalq Kitab Sərgisi bir sıra maraqlı nəşr və layihələrin təqdimatı ilə yadda qaldı. Oktyabrın 8-də sərgi çərçivəsində Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə ”Nizami Gəncəvi. Biblioqrafiya” kitabının və ”Sözləri Nizaminindir” CD albomun təqdimatı keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək paytaxtımızın ənənəvi olaraq ev sahibliyi etdiyi kitab bayramının bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmasını əlamətdar hadisə kimi səciyyələndirib. Qeyd olunub ki, bəşər bədii fikrinin nadir hadisəsi olan Nizami yaradıcılığı səkkiz əsrdən artıqdır ki, dünya mədəniyyətinin və xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilib. Şair dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş edib.

Direktor vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına və Mədəniyyət Nazirliyinin tədbirlər planına uyğun olaraq Milli Kitabxana “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından “Nizami Gəncəvi. Biblioqrafiya” kitabını və “Sözləri Nizaminindir” CD albomunu hazırlayıb. Bu nəşrlər “Nizami ili”nə və böyük şairin tədqiqatçılarına Milli Kitabxananın töhfəsidir.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli Nizami Gəncəviyə həsr olunan kitab sərgisində belə nəşrlərin təqdimatının əhəmiyyətini qeyd edib. Deyib ki, Mədəniyyət Nazirliyinin dəstəyi ilə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan kitab və CD albom tədqiqatçılar üçün faydalı mənbə olacaq.

AMEA-nın Əlyazmalar İnstitutunun elmi katibi, dosent Əzizağa Nəcəfov vurğulayıb ki, “Nizami Gəncəvi. Biblioqrafiya” kitabı nizamişünaslara, tədqiqatçı alimlərə hədiyyədir.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və yayımlar baş idarəsinin müdir müavini Taner Beyoğlu bu il Azərbaycanda Nizami Gəncəvinin anadan olmasının 880 illik münasibətilə “Nizami Gəncəvi İli”, Türkiyədə isə Yunus Əmrənin vəfatının 700 illiyi münasibətilə “Yunus Əmrə İli” elan olunmasını Türk dünyası adına mühüm hadisə kimi xarakterizə edib: “Hər iki şair Türk dünyasının görkəmli şəxslərindəndir. XII əsrdə yaşamış Nizami, XIII əsrdə yaşamış Yunus Əmrə yaradıcılığında ortaq cəhətlər var. Hər iki şairin yaradıcılığında Tanrıya dərin məhəbbət, insan sevgisi, eləcə də kamil insan mövzusu mühüm əhəmiyyət kəsb edir”.

Daha sonra Milli Kitabxananın dəvəti ilə beynəlxalq sərgiyə qatılan Rusiya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan və Gürcüstan milli kitabxanalarının rəhbərləri çıxış ediblər. Bolqarıstan Milli Kitabxanasının direktoru Krasimira Aleksandrova direktor Kərim Tahirova öz nəşrlərini elektron formatda hədiyyə edib.

Sonda qonaqlarla xatirə şəkli çəkdirilib.

# Səhnədə və ekranda sevilən aktyor



Teatr səhnəsində onlarla obraza həyat versə də, tamaşaçıların yaddaşında o daha çox “Arşın mal alan” musiqili komediyasında Soltan bəy rolu ilə qalıb. Tanınmış aktyor, Əməkdar artist Ələkbər Hüseynzadə Azərbaycanın teatr və kinosunda öz yeri alan sənətkarlardandır.

Ələkbər Hüseyn oğlu Hüseynzadə 3 oktyabr 1887-ci ildə Bakı şəhərində tanınmış zərgər ailəsində dünyaya göz açıb. Beş il mollaxanada oxuyub və fars dilini öyrənib. Sonra rus-tatar (Azərbaycan) məktəbində təhsilini davam etdirib. Hələ məktəbli ikən teatrla maraqlanır və özfəaliyyət dərnəklərinə yazılır. Şəhərin müxtəlif teatr truppalarına müraciət edir. Bəstəboy, gülərüz Ələkbəri ilk olaraq maraqlandıran səhnə müəllimi Səməd bəy Hacıəliyev olur. Məhz onun təşəbbüsü ilə Ələkbər teatra ayaq açır, komediya aktyoru kimi tanınmağa başlayır.

Gənc aktyor Ələkbər Hüseynzadəyə 1913-cü ildə Tağıyev teatrında tamaşaya hazırlanan “Arşın mal alan”da Soltan bəy rolu tapşırılır. İlk tamaşa çox uğurlu olur. “Arşın mal alan” bir ilin içərisində yalnız Bakının teatr səhnələrində 150 dəfədən çox oynanılır. Dövri mətbuat səhifələrində tamaşa haqqında geniş yazılar dərc edilir. “Sədayi-həqq” qəzeti 3 noyabr 1913-cü il tarixli nömrəsində yazıb: “Müsəlman bəstəkarı Üzeyir bəy Hacıbəyovun təzə operettası “Arşın mal alan” camaata çox xoş gəlib. Təkrar oynanmasını xahiş etdiklərinə görə cümə günü, noyabrın 8-də ikinci dəfə oynanacaqdır. Soltan bəy rolunda camaatın hüsni-təvəccöhünü qazanmış Ələkbər Hüseynzadə çıxış edəcəkdir”.

“Arşın mal alan” operettasının ekranlaşdırılması gündəmə gələndə aktyor seçimi vaxtı Soltan bəy roluna məhz Ələkbər Hüseynzadənin çəkilməsi məsləhət görülür.

Əməkdar incəsənət xadimi, tanınmış kino tədqiqatçısı Aydın Kazımzadə “Arşın mal alan” filminin ilk dəfə hələ 1916-cı ildə ekranlaşdırıldığını deyir. Onun sözlərinə görə, rejissor Boris Svetlov operettanın tamaşasına baxdıqdan sonra eyniadlı film çəkmək qərarına gəlib və səhnə əsərində rol alan aktyorların hamısını çəkilişə dəvət edib. Amma həmin film uğursuz alınmışdı və Üzeyir bəy də onu bəyənməmişdi. Bu əsərin ekran təcəssümü ilə əldə etdiyi gerçək uğuru 1945-ci ildə ekranlaşdırılan film oldu.

1945-ci ilin “Arşın mal alan”ı Rəşid Behbudov başda olmaqla, korifey sənətkarların iştirakı ilə ərsəyə gəlmişdi. Soltan bəy obrazını oynayan Ələkbər Hüseynzadə filmdən əvvəl 600 dəfə səhnədə bu obraza həyat verib. “Arşın mal alan” keçmiş SSRİ və dünyanın bir çox ölkəsində uğurla nümayiş etdirilib. Bu filmə görə rejissorlar Rza Təhmasib və Leşşenko, bəstəkar Üzeyir Hacıbəyli, aktyorlardan Rəşid Behbudov (Əsgər), Leyla Bədirbəyli (Gülçöhrə), Ələkbər Hüseynzadə (Soltan bəy), Münəvvər Kələntərli (Cahan xala) və Lütfəli Abdullayev (Vəli) 1946-cı ildə SSRİ Dövlət mükafatına layiq görülüblər.



Ələkbər Hüseynzadə gənclik illərində “Nicat” cəmiyyətinin truppalarına da dəvət olunur. Burada dramatik rollarla yanaşı, musiqi əsərlərindən “Məşədi İbad”da Hambal və Məşədi İbad, Zülfüqar bəy Hacıbəyovun “Ər və arvad”ında Kəblə Qubad rollarını oynayır. Eyni zamanda müxtəlif operalarda da çıxış edir. 1920-ci ildə bugünkü Akademik Milli Dram Teatrı yenidən formalaşır. Həmin vaxt teatrın truppasına Ələkbər Hüseynzadə də daxil edilir.

Yaradıcılığı əsasən realizmi, səmimiyyət və həyatilik ilə səciyyələnən aktyorun çoxsaylı rollarından Hacı Qara və Kərəməli (“Hacı Qara”, M.F.Axundzadə), Şeyx Nəsrullah və Hacı Həsən ağa (“Ölülər”, C.Məmmədquluzadə), Hacı Fərzəli (“Dursunəli və ballıbadı”, S.Qənizadə), Təlxək və Hacı Səməd ağa, Kərbəlayı Bəndəli və Mirzə Qoşunəli (“Pəri cadu” və “Bəxtsiz cavan”, Ə.Haqverdiyev), Hüseynqulu, Hacı Salman, Hacı Məmmədhüseyn və Məşədi Cavad (“Dövləti-bisəmər”, İ.Rüstəmbəyov), Yolçu, Ədhəm xan və Şah Sultan Hüseyn xan (“Nadir şah”, N.Nərimanov), İsgəndər xan (“Ağa Kərim xan Ərdəbili”, N.Vəzirov) və s. göstərmək olar.

Ələkbər Hüseynzadə Bakıda Sultan Muradovun “Kəblə Xudu”, Əliağa Vahidin “Milli meyxana”, Baba Qubinskinin “Yeni kupletlər” oyun-məzhəkələrini tamaşaya hazırlayıb.

Əməyi dövlət tərəfindən qiymətləndirilən Ələkbər Hüseynzadə 1957-ci ildə “Əməkdar artist” fəxri adına layiq görülüb.

Aktyorluq sənətinə ülvi tellərlə bağlanan, ona ömrünün sonuna kimi sadiq qalan sənətkar 4 noyabr 1967-ci ildə vəfat edib.

**Savalan FƏRƏCOV**

# Respublika Gənclər Kitabxanasının stendində tanınmış yazarla görüş




6 –10 oktyabr tarixində Bakı Ekspo Mərkəzində keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgisi müəllif və oxucuların ünsiyyətinə də geniş imkan yaratdı. Belə görüşlərdən biri də Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının stendində gerçəkləşib.

Sərginin ikinci günü – oktyabrın 7-də kitabxananın stendi önündə Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış detektiv yazar Elxan Elatlı ilə görüş keçirilib.

Gənclər Kitabxanasının elmi işlər üzrə direktor müavini Xalidə Musayeva oxucuların Elxan Elatlının yaradıcılığına maraq göstərməsindən danışıb.

Yazıçı “Qan ləkəsi”, “Yeddinci mərtəbədə qətl”, “Ən yaxın planet”, “Xəyanət”, “İtmiş qızın axtarışı”, “Pəncərədə görünən kölgə”, “Dilənçi qadının sirri” və başqa əsərləri haqqında məlumat verib. Müəllif daha sonra iştirakçıların suallarını cavablandırıb, yaxın aylarda çapdan çıxacaq yeni romanı ilə oxucularını sevindirəcəyini bildirib.

## Xatirə təqvimi — 13-15 oktyabr

### Azərbaycan

**13 oktyabr 1918** – Əməkdar incəsənət xadimi, rəssam Lətif Əbdülbağı oğlu Feyzullayev (1918-1987) anadan olub. Abşeron təbiətinin koloriti, Xəzər neftçiləri ilə bağlı maraqlı əsərlərin müəllifidir.

**13 oktyabr 1938** – Əməkdar artist Hamlet Ağadadaş oğlu Qurbanov (1938 – 15.11.1995) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə (“Dədə Qorqud”, “O dünyadan salam” və s.), televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**13 oktyabr 1938** – Əməkdar incəsənət xadimi, kinooperator Şərif Şərifov (1938 – 26.9.2008) Bakıda anadan olub. Filmləri: “Yol əhvalatı”, “Əzablı yollar”, “Şir evdən getdi”, “Qərib cinlər diyarında” və s.

**13 oktyabr 1940** – Bəstəkar, Əməkdar incəsənət xadimi Rəşid Şəfəq (Rəşid Camal oğlu Əliyev; 1940 – 24.8.2017) Bakıda anadan olub. “Bir saatlıq xəlifəlik”, “Baş tutmayan hiylə” operettalarının, uşaqlar üçün musiqili səhnə əsərlərinin (“Tülkü, tülkü, tünbəki...”), mahnıların müəllifidir.

**13 oktyabr 1940** – Əməkdar incəsənət xadimi, kinoşünas İmran Musa oğlu Xəlilov (1940 – 18.7.2000) anadan olub. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**13 oktyabr 1967** – Tanınmış aktyor, teatr xadimi İbrahim Hüseyn oğlu İsfahanlı (Hüseynzadə; 1897–1967) vəfat edib. Tiflis Azərbaycan Dram Teatrının baş rejissoru olub, Gürcüstanın Xalq artisti adına layiq görülüb. “Böyük dayaq” filmində (Yarməmməd) çəkilib.

**13 oktyabr 1974** – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlul oğlu Bəhlulzadə (15.12.1909 – 1974) vəfat edib. Əsərləri müxtəlif xarici muzeylərin eksponatları sırasındadır.

**14 oktyabr 1875** – Maarif xadimi, naşir Əlisgəndər Hacıbaba oğlu Cəfərzadə (1875-1941) Bakıda doğulub. 1906-1908-ci illərdə “Dəbistan” adlı ilk milli pedaqoji jurnalın naşiri və mühərriri olub.

**14 oktyabr 1912** – Heykəltəraş, Əməkdar incəsənət xadimi Həyat Həmdulla qızı Abdullayeva (1912 – 21.4.2006) Dərbənd şəhərində anadan olub. Şuşada M.P.Vaqifin abidəsi, X.Natəvanın büstü və s. əsərlərin müəllifidir.

**14 oktyabr 1933** – Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Məmməd Araz (Məmməd İnfil oğlu İbrahimov; 1933 – 2.12.2004) Naxçıvan MR Şahbuz rayonunun Nursu kəndində doğulub. Vətənpərvərlik, milli ruha sayğı şairin əsərlərinin aparıcı mövzusudur. Rus şairlərinin əsərlərini dilimizə tərcümə edib.

**14 oktyabr 1962** – Xalq artisti Əli Mirzə oğlu Qurbanov (20.6.1898 – 1962) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb. Filmlərdə yaddaqalan obrazlar yaradıb.

**15 oktyabr 1910** – Tanınmış kinorejissor, Əməkdar incəsənət xadimi Hüseyn Əli oğlu Seyidzadə (1910 – 2.6.1979) İrəvan şəhərində anadan olub. “O olmasın, bu olsun”, “Koroğlu”, “Dəli Kür”, “Yenilməz batalyon”, “Qayınana” filmlərini çəkib.

**15 oktyabr 1910** – Tarixçi, ictimai xadim İsmayıl Abbas oğlu Hüseynov (1910-1969) anadan olub.

**15 oktyabr 1933** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Nurəddin Xeyrulla oğlu Babayev (1933-2012) anadan olub.

**15 oktyabr 1928** – Xalq rəssamı Yusif İsmayıl oğlu Hüseynov (1928 – 1.9.2009) Bakıda doğulub. Kitab və dəzgah qrafikası, siyasi plakatlar və rəngkarlıq əsərlərinin müəllifidir. 1977-1987-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının sədri olub.

**15 oktyabr 1932** – Şair Hafiz Həbib oğlu Baxış (1932 – 7.9.1989) Zəngəzur mahalının Yuxarı Kirətağ kəndində doğulub. Sözlərinə populyar mahnılar bəstələnib.

**15 oktyabr 1938** – Azərbaycan teatr tarixində xidmətləri olmuş tanınmış aktrisa Panfiliya Nikolayevna Tanailidi (1891-1938) repressiya edilərək güllələnib. Milliyyətcə yunandır. Tiflis Azərbaycan teatrında, 1925-ci ildən Akademik Dram Teatrında çalışıb.

**15 oktyabr 1946** – Əməkdar mədəniyyət işçisi, kinoşünas, kino təşkilatçısı Abbas İbrahim oğlu Əliyev (1946-2008) anadan olub.

**15 oktyabr 1988** – Kristalloqrafiya sahəsində məşhur alim, Azərbaycan EA-nın müxbir üzvü Xudu Surxay oğlu Məmmədov (14.12.1927 – 1988) vəfat edib. Sənətşünaslıqla bağlı yazıların, “Naxışların yaddaşı”, “Qoşa qanad” və s. kitabların müəllifidir.

**15 oktyabr 1996** – Tanınmış diktor, Əməkdar artist Gültəkin Əjdər qızı Cabbarlı (9.3.1929 – 1996) vəfat edib.

### Dünya

**13 oktyabr 1921** – Fransız aktyoru və müğənnisi İv Montan (Yves Montand – İvo Livi; 1921-1991) anadan olub. Çəkildiyi filmlər: “Etiraf”, “Vəhşi”, “Silah seçimi”.

**13 oktyabr 1934** – Rus aktyoru Saveli Kramarov (1934-1995) anadan olub. Filmləri: “Uğur centlmenləri”, “Ələkeçməz qisasçılar”, “İvan Vasilyeviç peşəsini dəyişir” və s.

**14 oktyabr 1864** – Polyak yazıçısı Stefan Jeromski (Stefan Zeromski; 1864-1925) anadan olub. “Kül”, “Həyatın bəzəyi”, “Dənizdən külək”, “Günahın tarixi” və s. romanların müəllifidir.

**15 oktyabr 1814** – Rus şairi, yazıçı, dramaturq Mixail Yuryeviç Lermontov (1814 – 27.7.1841) anadan olub. Əsərləri: “Zəmanəmizin qəhrəmanı” (roman), “Mtsıri”, “Hacı Abrek”, “Qafqaz əsiri” (poema), “Maskarad” (pyes) və s. Azərbaycanda olub, “Aşıq Qərib” dastanını qələmə alıb.

**15 oktyabr 1844** – Alman filosofu Fridrix Nitsşe (Friedrich Wilhelm Nietzsche; 1844 - 25.8.1900) anadan olub. Dünya fəlsəfi fikrinə güclü təsir edən əsərlərin müəllifidir: “Faciənin doğuluşu”, “Zərdüşt belə deyirdi”, “Xeyir və şərdən o yana”, “Bütlərin qürubu” və s.

**15 oktyabr 1929** – Serb şairi, yazıçı, tərcüməçi Milorad Paviç (1929-2009) anadan olub. Xəzər xaqanlığından (VIII-IX əsrlər) bəhs edən “Xəzər lüğəti” tarixi-ensiklopedik romanının müəllifidir.

**Hazırladı: Vüqar ORXAN**

# “Qarabağ Azərbaycandır!” müsabiqəsinə layihə qəbulu yekunlaşmaq üzrədir

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elan etdiyi ”Qarabağ Azərbaycandır!” qrant müsabiqəsinə layihə qəbulu oktyabrın 15-də başa çatır.

Müsabiqənin məqsədi işğaldan azad edilmiş ərazilərimizin inkişafına töhfə verə biləcək müxtəlif elm sahələrini əhatə edən tədqiqat işlərinin stimullaşdırılması, Qarabağın tarixinin araşdırılması, azad edilmiş bölgələrdə arxeoloji tədqiqatların aparılması, tarixi-mədəni abidələrin tədqiq edilməsidir. Həmçinin bölgədə kənd təsərrüfatının inkişafını təmin edən, ekoloji problemlərin aradan qaldırılması, enerji və su ehtiyatının yaradılması, turizm potensialının düzgün qiymətləndirilməsi və istifadəsinə gətirib çıxara bilən elmi-tətbiqi xarakterli layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Elmin İnkişafı Fondundan bildirilib ki, müsabiqənin nəticələrinin 2022-ci ildə açıqlanması planlaşdırılır.

# Nizaminin yubileyi Polşada simfonik konsert proqramında qeyd edilib

Polşanın Kaliş şəhərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Nizami Gəncəvinin xatirəsinin də anıldığı "Azərbaycan notası – simfonik konsert" təşkil olunub.



Kaliş Filarmoniyasının simfonik orkestri və solist, tanınmış viola ifaçısı, Qdansk Musiqi Akademiyasının dosenti Kşıştof Timendorfun ifasında ilk dəfə dahi bəstəkarlarımız Fikrət Əmirovun "Nizami" və Qara Qarayevin "Yeddi gözəl" baletlərindən nümunələr səslənib. Konsertin proqramında həmçinin E.Bloxun "Hebru" süitası, P.Çaykovskinin "Andante cantabile" və 6-cı "Patetik" simfonik əsərləri yer alıb.

Konserti təşkilati məsələlərdə yaxından iştirak etmiş Kaliş şəhərinin vitse-meri Qjeqoj Kulavenik, tanınmış polyak dirijoru Pavel Kotla, polşalı musiqisevərlər və Polşada yaşayan həmvətənlərimiz izləyib.

Polyak musiqişünas Vitold Paproçki tədbiri açıq elan edərək səslənəcək musiqi parçaları barədə ətraflı məlumat verib.

Qjeqoj Kulavenik qonaqları salamlayaraq Polşada Azərbaycan musiqisinin səslənməsindən məmnunluğunu ifadə edib.

Daha sonra ölkəmizin Polşadakı səfiri Nərgiz Qurbanova tanınmış dirijor Ə.Quliyevin rəhbərliyi ilə Kaliş Filarmoniyası orkestrinin ifasında Azərbaycan musiqisinin səslənəcəyi gecənin iştirakçılarını salamlayıb, dəstəyə görə vitse-mer Q.Kulavenikə, dirijor P.Kotlaya təşəkkürünü bildirib. Səfir konsert proqramında bu il 880 illiyi qeyd edilən Azərbaycanın dahi şairi və mütəfəkkiri, dünya ədəbiyyatına böyük töhfələri ilə tanınan Nizami Gəncəvinin əsərlərinin motivlərinə əsaslanan musiqilərin də yer aldığını diqqətə çatdırıb.

N.Qurbanova 2022-ci ildə Azərbaycan-Polşa münasibətlərində üç yubileyin – iki ölkənin strateji tərəfdaşlığının əsasının qoyulmasının 5 illiyi, Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında diplomatik əlaqələrin 30 illiyi və Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsən ilə Polşa kralı IV Kazimir Yaqellon arasında ilk tarixi yazışmanın 550-ci ildönümünün qeyd ediləcəyini bildirərək, bu münasibətlə silsilə tədbirlərin keçiriləcəyini deyib. Diplomat hazırkı konsertin bu tədbirlərdən birincisi olduğunu qeyd edib.

Konsert proqramı sürəkli alqışlarla qarşılanıb.

Fasilə zamanı tədbir iştirakçıları Azərbaycanın milli şirniyyat və şərab nümunələrindən ibarət süfrəyə dəvət olunublar.

# Çindəki "Qədim məskənlər"də "Azərbaycan mədəniyyətinə pəncərə"



Çin Xalq Respublikasının Benbu şəhərindəki "Qədim məskənlər" mədəniyyət parkında Heydər Əliyev Fondu tərəfindən yaradılan "Azərbaycan mədəniyyətinə pəncərə" adlı pavilyon fəaliyyətə başlayıb.

Parkda məhdud sayda xarici milli pavilyonlardan birinci fəaliyyətə başlayanı Azərbaycan pavilyonudur. Pavilyonda Azərbaycanın müxtəlif xalçaçılıq məktəblərini təmsil edən xalça və kilimlər, misgərlik, dekorativ yaradıcılıq və şəbəkə sənəti nümunələri, bəzək əşyaları, milli geyimlər, musiqi alətləri, ölkəmizin mədəniyyətinə, tarixinə, müasir inkişafına dair nəşrlər nümayiş olunur. Nizami Gəncəvinin büstü, "Xarıbülbül", "Qız qalası" və "Ceyranlar" silsiləsindən heykəltəraşlıq əsərləri, Qobustan qaya rəsmlərinin imitasiyası da ekspozisiyada yer alıb.

"I love Baku" stendində isə Azərbaycana aid suvenirlər təqdim edilir. Pavilyonda quraşdırılmış monitorlarda isə mədəniyyətimizə, ölkəmizin tarixi və müasir memarlığına, Azərbaycanda keçirilən nüfuzlu beynəlxalq tədbirlərə aid videoçarxlar nümayiş olunur.

Əldə olunmuş razılığa əsasən, pavilyon uzunmüddətli əsasda fəaliyyət göstərəcək və Çinin ən iri turizm layihələrindən olan "Qədim məskənlər" mədəniyyət parkını hər il ziyarət edəcək milyonlarla qonaq Azərbaycan mədəniyyəti haqqında məlumat əldə edə biləcək.

Oktyabrın 11-də Çin Xalq Nümayəndələr Yığıncağı Daimi Komitəsinin (parlament) sədr müavini, Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Van Çen, Anhuy vilayətinin və Benbu şəhərinin rəhbər şəxsləri, Çindəki diplomatik korpusun təmsilçiləri Azərbaycan pavilyonunda olublar.



Qeyd edək ki, Benbu şəhərindəki Lonci gölünün ətrafında salınmış "Qədim məskənlər" mədəniyyət parkı 333 hektar sahəni əhatə edən iri mədəniyyət layihəsidir. Ərazidə Çin tarixində və mədəniyyətində xüsusi yer tutan məbədlərin oxşarı da daxil olmaqla, ənənəvi Çin memarlığı üslubunda 450 bina inşa edilib. Parkdakı pavilyonlarda Çin mədəniyyətinə, müxtəlif bölgələrinə, tarixi şəxsiyyətlərinə həsr olunan pavilyonlarla yanaşı, müxtəlif xalqların mədəniyyəti də təqdim ediləcək.

# Səhnədə ölüm




Rusiya Dövlət Akademik Böyük Teatrında Nikolay Rimski-Korsakovun "Sadko" operasının növbəti tamaşasında faciə yaşanıb.

Oktyabrın 9-da "Sadko" tamaşasının nümayişi zamanı səhnədə dekorasiyanın aşması nəticəsində 37 yaşlı aktyor Yevgeni Kuleş həyatını itirib. Fəci hadisə tamaşanın lap əvvəlində, səhnənin ikinci planında baş verib. Bundan dərhal sonra səhnədə pərdə endirilib. Yevgeni Kuleş 2002-ci ildən bu teatrda çalışıb.

Böyük Teatrdan bildirilib ki, hadisənin səbəbi tam aydınlaşdırılana qədər "Sadko" tamaşasının nümayişi qeyri-müəyyən vaxtadək dayandırılıb. Qeyd edək ki, N.Rimski-Korsakov rus nağıl qəhrəmanı Sadko haqqında operanın librettosunu da özü yazıb. İlk dəfə 1897-ci ildə nümayiş olunan tamaşanın səhnə tərtibatı müxtəlif montajlı dekorasiyalarla zəngindir.

# İtaliyada mədəniyyət obyektlərinin fəaliyyəti bərpa olunur



Avropada koronavirusdan (COVİD-19) ən çox zərər çəkən ölkələrdən olan İtaliyada normal həyata qayıdış başlayır. Oktyabrın 11-dən ölkədə teatrlar, kinoteatrlar, digər mədəniyyət, eləcə də idman obyektlərinin fəaliyyəti bərpa edilib.

Yeni qaydalara əsasən, ölkədə epidemioloji vəziyyətin yüngül olduğu regionlarda (ağ zona) teatr, kinoteatr və mədəniyyət evlərinin tam şəkildə, qapalı məkanlarda ümumi tutumunun 50 faizindən çox olmamaq şərti ilə isə gecə klubları və diskotekaların fəaliyyətinə icazə verilib. Açıq məkandakı bu əyləncə məkanları ümumi tutumun 75 faizi ilə fəaliyyət göstərə biləcək. Stadionlarda tamaşaçı tutumu 50 faizdən 75 faizə artırılıb.

Bütün məkanlara girişdə "Yaşıl keçid kartı" ("Green pass" və ya vaksin sertifikatı) tələb ediləcək.

# Pikassodan Van Qoqadək...

## "Sotheby's"in Honkonq hərracı məhsuldar olub



Məşhur ispan fırça ustası Pablo Pikassonun "Çömbəlmiş qadın" əsəri "Sotheby's"in Honkonq hərracında 24.6 milyon dollara satılıb. Bu barədə "Sotheby's" hərrac evi məlumat yayıb.

Əsərdə rəssam öz həyat yoldaşı Jaklin Roku təsvir edib.



Eyni hərracda hollandiyalı rəssam Vinsent Van Qoqun natürmortu 9.1 milyon dollara, çin mənşəli fransız abstraksionisti Sanyunun "Yatmış gözəl"i isə 10.3 milyon dollara satılıb.

Hərracda fransalı heykəltəraş Ogüst Rodenin əl işi – Napoleon Bonapartın büstü səbəbi açıqlanmadan satışdan çıxarılıb. Büst 1930-cu illərdə itkin düşmüş hesab olunurdu. Sənətşünaslar 2015-ci ilə qədər onun harada olduğundan xəbərsiz idilər.

"Sotheby's"in Honkonq hərracında ən baha qiymətləndirilən əsərlərdən biri Çin rəssamı Çjan Datsyanın "Səhər dumanı" olub. 27,5 milyon dollara satılan əsəri rəssam 1968-ci ildə abstraksionizm ruhunda və mavi-qəhvəyi tonlarda işləyib.

Çjan Datsyan son zamanlar Asiyada ən bahalı fırça ustası kimi tanınır. 2016-cı ildə onun "Yazda çiçək açan şaftalı ağacı" adlı rəsmi Honkonqda rekord qiymətə – 35 milyon dollara satılıb.

Müəllif ənənəvi Çin rəssamlıq sənətinin, əsasən də "se i" (ideyanın ötürülməsi) texnikasının ustası sayılır. O, həmçinin özünün "səpələnmiş tuş" texnikası sayəsində məşhurluq qazanıb.

# Ölkəmizin turizm imkanları "Expo-2020 Dubai"da

Oktyabrın 11-də "Expo-2020 Dubai" beynəlxalq sərgisi çərçivəsində Azərbaycan turizm həftəsinə başlanılıb. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə reallaşan həftə ərzində Azərbaycanın milli pavilyonunda müxtəlif tədbirlər keçiriləcək.




Tədbirdə iştirak edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid mart ayına qədər davam edəcək sərginin ölkəmizin turizm imkanlarının təqdimatı üçün mühüm platforma olduğunu deyib. Açılışda Azərbaycanın aqro-qastro turizm potensialını birləşdirən, Avropa İttifaqının maliyyə dəstəyi ilə ərsəyə gələn "Slou Fud" beynəlxalq layihəsinin "Dad gəmisi" adlı milli turizm məhsulunun təqdimatı da keçirilib.

Qeyd edək ki, Azərbaycan "Expo-2020 Dubai" beynəlxalq sərgisində "Gələcəyin toxumları" tematikası ilə dizayn edilmiş milli pavilyonla təmsil olunur. Milli pavilyondakı interaktiv elektron vasitələrdə Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, müasir incəsənəti və digər mövzularda videoçarxlar təqdim edilir. Eləcə də, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi və sosial sahələrdə davamlı inkişafı və innovasiyalar, 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işləri haqqında məlumat verilir.

Turizm həftəsi çərçivəsində "Yarımsəhradan sıx meşələrə" başlıqlı Bakı, Lənkəran və Leriki əhatə edən cənub istiqaməti, "Ən aşağı nöqtədən ən yüksəklərə" – Bakı, Xızı, Quba və Qusarı əhatə edən şimal istiqaməti, "Qədim izlər, heyrətamiz mənzərələr" – Bakı, Şamaxı, İsmayıllı, Qəbələni əhatə edən şimal-qərb istiqaməti, "Müalicəvi təbiət, ilhamverici tarix" başlıqlı Bakı, Gəncə, Naftalan və Göygölü əhatə edən qərb istiqamətinin turizm potensialına dair təqdimatlar keçiriləcək.

Qeyd edək ki, oktyabrın 1-dən start götürən "Expo-2020 Dubai" beynəlxalq sərgisi 2022-ci il martın 31-dək davam edəcək.

# "Euronews"da Lahıc haqqında reportaj

"Euronews" televiziyası Azərbaycanın İsmayıllı rayonunun qədim Lahıc qəsəbəsi haqqında növbəti reportaj hazırlayıb.




Lahıcı sənətkarlar şəhəri kimi təqdim edən reportajda qəsəbədəki çay daşlarından tikilən bənzərsiz evlər, sənətkarlıq emalatxanaları, dəri emalı sexləri, bir neçə əsr yaşı olan xalçalardan bəhs edilir. Verilişdə Lahıcın misgərlik sənəti ilə də məşhur olduğu vurğulanır, yerli misgərlərlə söhbətlər təqdim edilir.

"Bu emalatxananın 300 yaşı var. 1725-ci ildə açılıb və hələ də fəaliyyətdədir. İndi 50 yaşım var. Övladlarım burada çalışan səkkizinci nəsildir. Bu sənət güc, dözüm və səbir tələb edən çətin bir işdir", – deyə misgər Kəbleyi Əliyev bildirib.

Bundan başqa, verilişdə qeyd edilib ki, Lahıcda hazırlanan mis qablar Luvr da daxil olmaqla dünyanın məşhur muzeylərində sərgilənir.

Lahıc Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Kamal Əliyev bildirib ki, Lahıcda mis emalının tarixi bir neçə əsr öncəyə gedib çıxır. Arxeoloqlar Orta əsrlərdə ölkənin müxtəlif yerlərində Lahıcda zərb olunmuş mis sikkələr tapıblar.

Reportajda o da vurğulanıb ki, 2015-ci ildə Lahıcın misgərlik sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

# "Sonuncu" növbəti festivalda

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və "Salnaməfilm" studiyası tərəfindən istehsal olunmuş "Sonuncu" sənədli filmi oktyabrın 23-dən 30-dək İstanbulda keçiriləcək 9-cu Boğaziçi Beynəlxalq Film Festivalında nümayiş olunacaq. Rejissor Fariz Əhmədovun filmi festivalın "Beynəlxalq sənədli filmlər" kateqoriyasında yarışacaq.




Filmin baş prodüseri Arzu Əliyeva, prodüserləri Orman Əliyev və Nazim Hüseynov, ssenari müəllifləri Esmira Əyyub və Fariz Əhmədov, operatoru Mateuş Çuxnovskidir (Polşa).

"Sonuncu" filmi bu ay həmçinin Polşanın Poznan şəhərində keçiriləcək 25-ci Beynəlxalq sənədli film festivalının proqramına daxil edilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1971
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.